www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 avqust 2024-cü il Cümə axşamı № 154 (8527) Qiymətı 60 qəpik

Xəbər

**İki vəkilə cinayət işi açıldı - "nüfuz alveri"...**

yazısı səh.11-də

Gündəm

## Putin Prezident İlham Əliyevə zəng etdi - mühüm müzakirələr




Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat dəhlizinin açılması ilə bağlı da fikir mübadiləsi aparılıb

yazısı səh.7-də

## Bayramovun bəyanatı, Paşinyanın kadr dəyişiklikləri anonsu - konstitusiya islahatına hazırlıq, yoxsa...

yazısı səh.5-də

## "AŞ PA qarşısında sərt mövqe qoymasaq..." - partiya sədrindən sərt açıqlama

yazısı səh.6-da

## Xəzərin taleyi Volqa çayından asılıdır? - ekspertdən ilginc açıqlama

yazısı səh.12-də

## Qazi və qardaşı hakimə xəsarət yetirməkdə ittiham olunur

yazısı səh.3-də

## Seçkinin son 2 günü - ölkə boyunca kampaniya necə keçdi

yazısı səh.6-da

## Naxçıvanla sərhəddə erməni təxribatları artır - səbəb...

yazısı səh.7-də

## Pezeşkiana hücumlar başladı - ana dilində müsahibə qəbahətdirmi?

yazısı səh.4-də

## Trampın Ukraynadakı müharibə ilə bağlı mövqeyi dəyişib

yazısı səh.13-də

## "Batka"nın müstəqilliyi itirmək təşvişi - Belarusu nə gözləyir?

yazısı səh.13-də

# 3+3 FORMATI YENİDƏN GÜNDƏMƏ GƏLƏ BİLƏR - SEÇKİDƏN SONRA...

Azərbaycan Prezidentinin ideya müəllifi olduğu xilas layihəsi yenidən masaya qayıdacaq; Gürcüstanın ardınca Ermənistan da "daşı ətəyindən tökə bilər"

yazısı səh.9-da



# Kiberoğruların "basqınları" amansızlaşır - qlobal mübarizə tələbi

Vətəndaş özünü qorumaq istəyirsə, bilmədiyi heç bir linkə daxil olmamalıdır, bank kartlarının məlumatlarını gizli saxlamalıdır, anonim zənglərə aldanmamalıdır

yazısı səh.3-də



*Əli Məsimli:*

## "Minimum əmək haqqını 33-35 faizlik həddən 60 faizə mərhələlərlə çatdırmaq mümkündür"

yazısı səh.10-da



## Telegram-ın yaradıcısı Pavel Durov sərbəst buraxıldı

yazısı səh.2-də



## Rusiyadan rəsmi nüvə təhdidi - Lavrov nə demək istədi?

yazısı səh.8-də

# Telegram-ın yaradıcısı Pavel Durov sərbəst buraxıldı



**Paris məhkəməsi Telegram-ın yaradıcısı Pavel Durovu azad edib. Musavat.com xəbər verir ki, bu barədə Fransanın BFMTV kanalı məlumat yayıb. Bildirilib ki, hakim Pavel Durovun "ilkin dindirilməsi və mümkün ittiham irəli sürülməsi məqsədilə" polis nəzarəti altında qalmasına xitam verib.**

O, məhkəmə zalından azad olunub.

Xatırladaq ki, P.Durov Fransanın "Le Burje" hava limanında saxlanılıb. Fransa KİV-in məlumatına görə, Fransa vətəndaşlığı olan P.Durov ölkədə axtarışda olan şəxslərin siyahısında yer alırdı.

O, bir sıra cinayətlərdə, o cümlədən Telegram-ın ölkə hökuməti ilə əməkdaşlıqdan imtina etməsində ittiham olunur. Pavel Durov avqustun 24-də Parisdə saxlanılmışdı.



## Zaxarova: "İrəvan 10 noyabr bəyanatından imtina etməyib"

**Rəsmi İrəvan Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatından imtina etməyib. Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova dünən keçirdiyi brifinqdə erməni jurnalistin guya "Azərbaycanın Qarabağın erməni əhalisinə qarşı "etnik təmizləmə" aparmasından sonra Rusiya 10 noyabr bəyanatının qüvvədə qaldığını hesab edirmi? Əgər hesab edirsə, o zaman Moskva ermənilərin Qarabağa qayıtmasını necə görür?" sualına cavabında bildirib. (APA)**

Zaxarova erməni jurnalistin "etnik təmizləmə" terminindən istifadə etməsinə irad tutub. Qeyd edib ki, Qarabağda "etnik təmizləmə" ilə bağlı Ermənistanda hörmətlə yanaşılan heç bir beynəlxalq təşkilat hansısa nəticəyə gəlməyib.

"Biz sizinlə bunu yarım il bundan öncə müzakirə edərkən siz mənə hansısa beynəlxalq təşkilatın, beynəlxalq təşkilatda çalışan hansısa ekspertin "etnik təmizləmə" ilə bağlı bir qərarını, qiymətləndirməsini göstərə bilmədiniz. Əgər sizdə belə bir məlumat varsa, müvafiq qiymətləndirmə varsa, o zaman nümunə gətirin, mənimlə bölüşün! O ki qaldı "Rusiya Qarabağın erməni əhalisinin qayıtmasını necə görür" sualına, mən dəqiqləşdirmək istəyirəm, bunu Ermənistan baş naziri Nikol Paşinyan necə görür? Bununla bağlı hansısa ətraflı proqram mövcuddurmu? Mən misal üçün, Qarabağın erməni əhalisinin qayıtması ilə bağlı Azərbaycan tərəfinin proqramını görmüşəm. Əgər Ermənistan baş naziri tərəfindən belə bir proqram irəli sürülübsə, mən məmnuniyyətlə ona baxardım. O zaman onu şərh də edərdim".

**Rusiya XİN sözçüsü 10 noyabr 2020-ci il üçtərəfli bəyanatının fəaliyyətdə olduğunu vurğulayıb. O, bu sənədin əvvəlki kimi Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesinin əsasını təşkil etdiyini vurğulayıb:** "Hesab edirik ki, bu bəyanata alternativ yoxdur. Əgər sizə Ermənistanda rəsmi səviyyədə kiminsə bu bəyanatdan imtina etdiyi məlumdursa, misal üçün, imzasını geri götürübsə, baxmayaraq ki, həmin imza bəyanatda qalır və ya bu sənədin qüvvədə olmadığı barədə rəsmi bəyanat yayıbsa, o zaman biz bunu şərh edərik. Lakin biz belə bir şey eşitməmişik".




## Qəzzada daha bir jurnalist öldürüldü

**İsrail ordusunun Qəzzada həyata keçirdiyi hücumlarda Menazil Media Şirkətində çalışan jurnalist Muhammed Abdulfettah Abdurabbunun həyatını itirdiyi bildirilib. (Bakupost)**

Bununla da 2023-cü il oktyabrın 7-dən İsrail ordusunun hücumuna məruz qalan Qəzza zolağında öldürülən jurnalistlərin sayı 172-yə yüksəlib.

Bəyanatda həmçinin İsrail ordusunun Qəzza zolağında jurnalistləri hədəfə alması pislənilib və jurnalistlərin öldürülməsində İsrail rəhbərliyinin məsuliyyət daşıdığı vurğulanıb.

Mətbuatla bağlı beynəlxalq ictimaiyyətə və beynəlxalq təşkilatlara ünvanlanan bəyanatın müəllifləri fələstinli jurnalistlərin öldürülməsini dayandırmaq üçün İsrailə qarşı sanksiyalar tətbiq edilməsi və törətdiyi cinayətlərə görə beynəlxalq məhkəmələrdə mühakimə olunması üçün hərəkətə keçməyə çağırıblar.

Həyatını itirən jurnalistin yaxınlarına da başsağlığı verilib.



## Tacikistanda falçıya gedənlər cəzalandırılacaq

**Tacikistanda falçılıqla məşğul olan şəxslərin xidmətlərindən istifadə edənlər cəzalandırılacaq.**

APA-nın "AsiaPlus" saytına istinadən xəbərinə görə, bu barədə ölkənin Daxili İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, araşdırmaların nəticəsində mütəmadi olaraq müəyyən məbləğ qarşılığında bu cür şəxslərə müraciət edən 150 nəfərlə bağlı müvafiq tədbirlər görülüb.

Bundan əlavə, nazirlik həmin insanlar haqqında informasiyanın yer alacağı məlumat bazasının yaradılmasına qərar verib.



## İran İsrailin diplomatik obyektlərinə hücum edə bilər

**"İran HƏMAS liderinin öldürülməsinə cavab olaraq, İsrailin diplomatik obyektlərinə hücum edə bilər". Musavat.com xəbər verir ki, bu barədə "The New York Times" qəzetində dərc edilən "Hizbullah-İsrail qarşıdurması ilə İranın növbəti addımı daha sadə ola bilər" başlıqlı yazıda bildirilib.**

Qeyd edilib ki, daha genişmiqyaslı müharibə ilə bağlı həftələrlə regional qorxulardan sonra Hizbullahın İsrailə məhdud hücumları onu göstərir ki, İran da müttəfiq kimi eskalasiya riskini dəf etmək istəyir.

Bununla bağlı, qəzet Pentaqonun Yaxın Şərq əməliyyatlarına nəzarət edən Mərkəzi Komandanlığın (CENTCOM) keçmiş rəhbəri, istefada olan general Kennet Makkenziyə istinadən yazıb: "İran HƏMAS lideri İsmayıl Həniyənin Tehranda öldürülməsinə cavab olaraq Avropa, Afrika və ya Cənubi Amerikadakı İsrailin diplomatik obyektlərinə hücum edə bilər. Zəif cəhətlərinə görə səfirliklər asan hədəflər sayılır".

❑ Musavat.com

## Müəllimlərin işə qəbulu üzrə müsabiqədə 2 mindən artıq yer 3 ildir seçilmir

**Müəllimlərin işə qəbulu üzrə müsabiqədə 2 mindən artıq yer 3 ildir seçilmir.**

APA xəbər verir ki, bunu Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) Ümumi təhsilin təşkili şöbəsinin müdir müavini Nurlan İsmayılbəyli jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, 2 mindən artıq vakant yer var ki, onları üç ildir təqdim edirlər və bir müəllim belə seçmir: "Bu vakant yerlərə əsasən, ucqar rayonlarda olan məktəblər, rus sektorunda olan bəzi fənlər daxildir".

Sertifikasiyadan kəsilən 700 nəfər müəllim alternativ işlə təmin edilib.

Bunu da Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) Ümumi təhsilin təşkili şöbəsinin müdir müavini Nurlan İsmayılbəyli jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, onlar sosial həssas kateqoriyadan olan müəllimlərdir.



## İranda ilk dəfə qadın hökumət sözçüsü təyin edildi

**İranda ilk dəfə qadın hökumət sözçüsü təyin edilib. Musavat.com İRNA-ya istinadən xəbər verir ki, dünən Nazirlər Kabinetinin iclasında İran prezidenti Məsud Pezeşkianın təklifi ilə Fatimə Mühacirani hökumət sözçüsü təyin olunub.**

Məlumata görə, Seyid Kamal Təqəvi isə Nazirlər Kabinetinin katibi vəzifəsinə təyinat alıb.

Xatırladaq ki, 13-cü hökumətin (İbrahim Rəisi) dövründə Nazirlər Kabinetinin katibi və hökumətin sözçüsü Əli Bəhadori Cəhromi idi.

Musavat.com

# Kiberoğruların “basqınları” amansızlaşır - qlobal mübarizə tələbi

## Vətəndaş özünü qorumaq istəyirsə, bilmədiyi heç bir linkə daxil olmamalıdır, bank kartlarının məlumatlarını gizli saxlamalıdır, anonim zənglərə aldanmamalıdır

**Kiberoğrular faktiki olaraq insanların həyatını zəhər edib. Xüsusilə elektron, bank bazasının təhlükəsizliyi zəif olan kiçik ölkələrə “basqınlar” amansızlaşıb. Kiberoğrular hər gün yeni taktikalar seçir və kartlardan insanların pullarını çıxarırlar.**

Məsələn, kimsə süni intellekt vasitəsilə valideynlərə övladlarının səsi ilə zəng edib pul alır, kimisi isə ödəmələrdən sonra ikinci ödəməni haker hücumu ilə həyata keçirir və s.

Bu oğrular artıq telefonumuzun içərisində də yatır! Kibertəhlükəsizlik üzrə mütəxəssislər Android istifadəçilərinə hədəflənmiş yeni zərərli proqram təminatını aşkar ediblər. Yeni zərərli proqram təminatı NGate adlanır. oğurlanması barəsində hesabat təqdim etmişdi. Çox güman ki, NGate adlı zərərli proqram təminatı da həmin hadisə ilə əlaqəlidir. Bu zərərli proqram təminatının iştirakı ilə reallaşdırılan kiberhücumlar fişinq (phishing) mesajlardan, robot zənglərdən və zərərli reklamlardan başlayır. Bu cür üsullarla istifadəçini PWA (Progressive Web App) və ya WebAPK tətbiqlərini yükləməyə məcbur edirlər.



NGate kredit kart məlumatlarının oğurlanması üçün smartfonlardakı NFC çipindən istifadə edir. Məlumatda qeyd edilib ki, bu zərərli proqram təminatı qurbanın smartfonundakı NFC çip vasitəsilə oxunulan məlumatları dələduzun smartfonuna ötürür. Dələduz isə öz növbəsində əldə edilmiş məlumatlar vasitəsilə qurbanın bank kartını imitasiya edərək onun adından alış-veriş edə və ya kartdan pul çıxara bilər.

Məlumata əsasən NGate keçən ilin noyabr ayından aktivdir. Hələ bir neçə müddət bundan öncə ESET şirkəti Çexiyada bank hesablarının

Bu zərərli tətbiqlər istifadəçinin hesab məlumatlarını oğurlayır və daha sonra NGate öz növbəsində NFC Gate-dən istifadə edərək bank kartı məlumatlarını oğurlamağa başlayır. Dələduz isə oğurlanmış bank kartı məlumatını virtual kart şəklində saxlaya bilir.

Bu üsul ilə o, PoS terminallarda ödəniş edə və ya bankomatlardan pul çıxara bilər. Bankomatlardan pul vəsaitlərinin virtual kart vasitəsilə çıxarılması üçün lazım olan PIN kodu onlar sosial mühəndislik vasitəsilə əldə edirlər. İstifadəçilərə istifadə etmədikləri halda NFC funksiyasının deaktiv edilməsi və bank tətbiqlərinin yalnız rəsmi mənbələrdən yüklənməsi məsləhət görülür.

Bu bəladan qurtuluş yoxdurmu? Texnologiyalar inkişaf etdikcə vəziyyət daha da dramatikləşəcəkmi? Sadə çıxış yolları nədir? Qlobal mübarizə başlamalıdırmı? Banklar təhlükəsizlik üçün öhdəliklər götürməlidirmi? Qoruma sistemləri niyə hakerlərin giriş edə bilməyəcəyi səviyyəyə gətirilə bilmir?

**Rəqəmsal sahə üzrə mütəxəssis Vasif Qəhrəmanov** Musavat.com-a açıqlamasında bildirib ki, Android əməliyyat sistemi açıq platforma olduğuna görə burada fərqli maxinasiyalar, viruslu proqramlar yazmaq çox rahatdır. Və bunların yayılması da çox qısa bir zamanda baş verir.

“İOS platforması qapalı olduğuna görə dələduzlar heç bir dəyişikliklər edə bilmirlər, çox qəlizdir. Buna görə də əsas hədəf Android platformasıdır. Belə bir hallarla qarşılaşmamaq üçün insanlar mənbəsi bilinməyən proqramları, "web application"ları yükləməsinlər. Hətta bu yükləmələri “Play Store”dən belə etməsinlər. Doğrudur, siz onu “Google Chrome” brauzerindən yükləsəniz, daha təhlükəlidir, lakin bütün hallarda yükləməli deyilsiniz. Qarşınıza hansısa bir bildirişlər çıxarsa, onu açmayın. Çünki dələduzlar insanları tələsdirərək, sosial mühəndislikdən istifadə edərək, psixologiyalarına təsir edib işləri görməyə vadar edirlər. Beləliklə, özünüzün də xəbəri olmadan Android sistemli telefonunuz dələduzların əlinə keçir. Nə qədər inkişaf etmiş və gücləndirilmiş olsa da hər bir sistemi qırmaq mümkündür. Boşluğu olmayan sistem yoxdur. Ona görə də biz öz intuisiyamıza güvənməliyik. Tanımadığımız “web application”lara toxunmamalıyıq".

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının İdarə Heyətinin sədri Elvin Abbasov deyir ki, kiberdələduzlar “Dark web” və “A zero-day” kimi platformalarda bu istiqamətdə alış-veriş edirlər. Bir-birindən proqram təminatları alırlar. Və bu tip proqram təminatlarının qiymətləri baha olur.

“A zero-day-də və ya ""Dark web""də kriptovalyuta ilə alış-veriş edirlər. Birbank hesabınızda və ya hansısa beynəlxalq sistemdə boşluq olarsa, proqram təminatından istifadə edərək kiberdələduzlar hücuma keçirlər.

Bəlkə də Azərbaycanda da belə proqramlardan istifadə olunur. Bu tip proseslər ilk növbədə fişinqlə başlayır. Qurbanın cihazı ələ keçirilir, daha sonra onun proqramına web tətbiqlər yüklənir və bu proqram təminatlarından istifadə başlanır.

Vətəndaş əgər özünü qorumaq istəyirsə, bilmədiyi heç bir linkə daxil olmamalıdır. O halda bu tip cinayətlərə məruz qalmayacaq. Eyni zamanda mesajlaşma proqramlarından təklif olunan linklərə toxunmasın.

Yeni dələduzluq növünün avantajı odur ki, həmin vətəndaşların bank kartlarını virtual kart kimi saxlayıb istifadəyə yararlı hala gətirirlər".

❑ **Şahanə RƏHİMLİ,**
**“Yeni Müsavat”**

# Qazi və qardaşı həkimə xəsarət yetirməkdə ittiham olunur

**“Saatlı rayon sakini, veteran, I qrup əlil Həsən Mehtiyevin təzyiqə məruz qalması iddiaları əsassızdır, barəsində olan ittihamlardan yayınmaq məqsədindən irəli gəlir”.**

Bu barədə APA-ya DİN-in mətbuat xidmətinin regional qrupundan bildirilib. Qeyd olunub ki, H.Mehtiyev avqustun 25-də saat 21:30 radələrində qardaşı Elgün Mehtiyevlə birlikdə mərkəzi rayon xəstəxanasının təcili yardım şöbəsində uca səslə qurumun əməkdaşlarının ünvanına nalayiq ifadələr işlədib və ona qanunsuz olaraq əlavə preparat verilməsini tələb edib:



“Həmin gün xidmətdə olan qadın növbətçi həkim ona tələb etdiyi xüsusi preparatın normadan artıq olduğunu və onun həyatı üçün təhlükə yarada biləcəyini qeyd edib. Bununla razılaşmayan H.Mehtiyev təkrarən təhqirlər səsləndirib, əlində olan mobil telefonla həkimin sifətinə, qardaşı isə baş nahiyəsinə bir neçə dəfə yumruq zərbəsi vuraraq xəsarət yetiriblər.

Daha sonra H.Mehtiyevin valideynləri də oraya gələrək xəstəxananın əməkdaşlarına qarşı nalayiq ifadələr səsləndirərək onları təhqir ediblər".

Məlumata görə, H.Mehtiyevin törətdiyi xuliqanlıq hərəkətlərinə görə barəsində başlanan cinayət işi üzrə araşdırmalar aparılır, ailə üzvləri barəsində isə qanunvericiliyə uyğun olaraq tədbirlər görülüb. Törədilən xuliqanlıq hərəkətlərinin əks olunduğu görüntülər və digər maddi sübutlar istintaqa təqdim edilib.

Hazırda cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir.




# Mərakeş və Azərbaycan arasında sadələşdirilmiş viza rejimi tətbiq olundu

**Avqustun 28-dən Mərakeş və Azərbaycan arasında vizadan azad edilmə haqqında saziş rəsmi olaraq qüvvəyə minib. Musavat.com-un məlumatına görə, bu gündən Azərbaycan vətəndaşları pasportlarının ölkəyə giriş tarixindən ən azı 180 gün müddətində etibarlı olması şərtilə Mərakeşə 90 günə qədər qalma müddəti ilə vizasız gedə biləcəklər.**

Eynilə Mərakeş vətəndaşları da Azərbaycana səfər etdikləri zaman vizasız imtiyazlardan yararlanacaqlar.

Xatırladaq ki, bu il mayın 4-də iki ölkə arasında “Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında ümumvətəndaş pasportlarının sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş” imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyev iyulun 15-də bu sazişi təsdiqləyib.

YENİ MÜSAVAT
N 154 (8527) 29 avqust 2024

# Pezeşkiana hücumlar başladı - ana dilində müsahibə qəbahətdirmi?

## "Onun bu addımları İranın yaxşı mənada mədəniləşməsinə gətirib çıxaracaq yolun başlanğıcı ola bilər"

**İran prezidenti Məsud Pezeşkianın ana dilində müsahibə verməsi İranda və dünyanın bir sıra dairələrində qıcıq yaradıb. Peşezkian bu müsahibəsində həmçinin Güneydəki azərbaycanlıların ana dilində təhsil almasının mümkünlüyündən danışıb.**

Buna görə onu artıq topa tuturlar, təhdid edirlər. İranda molla rejimi Azərbaycana münasibətdə qismən pozitiv mövqe tutan Pezeşkiana sui-qəsd təşkil edə bilərmi? Prezidentin ana dilində müsahibə verməsi qəbahətdirmi?

Mövzu ilə bağlı **Milli Məclisin VI çağırış deputatı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Pezeşkianın türk dilində müsahibə verməsi əslində İranın mədəniləşməsinə gedən yolun başlanğıcıdır: "Çünki bu, İranda həm məzhəb, həm də müəyyən milli şovinizmin buxovlarının sındırılması deməkdir. Beləliklə, Pezeşkianın türk dilində müsahibə verməsi adi bir hadisə deyil.

Burada təkcə türk dilindən söhbət getmir, həm də müəyyən xalqların kürd, ərəb, rus və digər dillərdən bəhrələnməsindən söhbət gedir və İranın bütövlükdə ideoloji vəhşilik sindromundan qurtuluşu üçün vacib addımlardır. Çünki bu dövlətdə insan haqlarının ən primitiv formaları belə qəbul olunmur, ona görə də prezident səviyyəsində bu addımların atılması, hər halda, tarixi zərurətdən irəli gəlir. Yəqin ki, Pezeşkian elə buna görə belə bir davranış sərgiləyib. Əslində yeni dövrün adamı kimi reallıqları dərk edərək, bu cür addım atdığını söyləmək olar.

Təbii ki, Pezeşkian bu addımlarına görə bu təzyiqlərlə qarşılaşacaq, amma qeyd etdiyim kimi, onun bu addımları İranın yaxşı mənada mədəniləşməsinə gətirib çıxaracaq yolun başlanğıcı ola bilər".

**Milli Məclisin VI çağırış deputatı, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı isə qeyd edib**: "Pezeşkianın rəsmi dairələrdə Azərbaycan dilində danışması birinci dəfə deyil. Yeni dəfələrlə öz ana, Azərbaycan dilində danışıb və onun bu mövqeyi uzun illərdir davam edir.

Fikrimcə, Pezeşkianın bu mövqeyi İranın xilası, gələcək taleyidir. Çünki İranda 10 milyonlarla sayı olan xalqlar nə qədər boğulsa, hüquqları əllərindən alınsa, bir o qədər İranın bölünməsi və dövlət olaraq bütün sisteminin dəyişilməsi uğrunda mübarizələrini artıracaqlar. Lakin dinc yolla İran xalqlarına müəyyən hüquqlar verilməsi, ən azından heç olmasa ibtidai məktəbdə ana dilində təhsil alması həm həmin xalqların içindəki qəzəbi soyudacaq, həm də onların inkişafına təkan verəcək, eyni zamanda beynəlxalq aləmdə İranın imicini tamamilə dəyişəcək.



Hətta dini kitablar, o cümlədən Quran bir millətin əzilməsinə, dilinin əlindən alınmasına haqq qazandırmır. Həmçinin elə bir qanun yoxdur ki, hamı bir ölkədə ya fars, ya da ərəb dilində danışmalıdır və yaxud bütün müsəlmanlar ancaq ərəb dilində dua oxumalıdır".

**Sabir Rüstəmxanlı həmçinin bildirib ki, Pezeşkian Urmiya gölünün bərpasına çalışır və bununla da Azərbaycanda doğulmuş, burada böyümüş adam kimi Urmiyanın taleyinə yanır:** "Məlum məsələdir ki, Urmiya gölü quruyarsa, Şimal-Qərbi İran da səhraya çevrilə bilər. Həmçinin orada 10 milyard ton duz yatır, külək həmin duzu bütün İrana yaya bilər. Bu, hətta bizim üçün də bu böyük təhlükədir.

Bir sözlə, Pezeşkian təkcə Azərbaycanın deyil, İranın xeyrinə çalışır, onun gələcəyini düşünür. Hesab edirəm ki, İran rəsmiləri, o cümlədən ölkənin ali rəhbəri Pezeşkianın bu mövqeyinin möhkəmlənməsinə kömək etməli, onun ideyalarını, fikirlərini həyata keçirməsinə yol açmalıdır.

Təbii ki, 1925-ci ildən İranı fars dövlətinə çevirənlər istəməzlər ki, ölkədə fars dilinin hegemonluğu əlindən alınsın. Onlar, ümumiyyətlə, İranda olan xalqların dilini unutdurmaq, farslaşdırmaq üçün illər uzunu əllərindən gələni edir, həm gizli, həm də açıq şəkildə planlarını həyata keçirirlər. Hətta ucqar kəndlərdə belə insanları fars dilində danışmağa məcbur edirlər ki, öz ana dillərini unutsunlar. Bu, nəticə etibarı ilə İran türklərinin gələcəyini təhlükə altına atır. Bu təhlükə günün birində İran dövlətçiliyinə qarşı çevrilə bilər. Pezeşkian bunların hamısını bilir, ona görə də öz addımlarını atır.

Buna görə Pezeşkiana təhdidlər ola bilər. Lakin Pezeşkian deyil, digərləri onun yerində olsa belə, bu yol, bu xətt heç vaxt qırılmaz".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Ermənilərin sərhəddəki kəndlərdən köçünün səbəbi

## Polkovnik: "Ermənistan hakimiyyəti bilməlidir ki, Azərbaycanla sülh müqaviləsi imzalamadıqca, bu fəlakət get-gedə genişlənəcək"

**Ermənistanın Azərbaycanla həmsərhəd rayonlarının - Qeqarkunik, Tavuş və Sünikin sakinləri kütləvi şəkildə evlərini tərk edirlər.**



Musavat.com xəbər verir ki, bu ölkənin Statistika Komitəsinin məlumatına görə, son beş ildə sərhəd ərazilərindən 40 minə yaxın insan köçüb. Bir çox kəndlər tamamilə boşalıb.

Axının səbəbləri göz qabağındadır: baş verənlərdən dərin məyusluq, gələcəyə dair qeyri-müəyyənlik və yığılmış sosial problemlər.

Gedənlər yaxınlarına etiraf edirlər ki, 44 günlük Qarabağ müharibəsindən sonra sərhəd bölgələrində qorxu və bədbinlik daha da güclənib və bu, kütləvi köçə səbəb olub.

Kənddə hələ də yaşayanlar bunları deyirlər: "İnsanlar müharibədən sonra məyus olduqları üçün gedirlər. Yaşam üçün ən zəruri şeylər çatışmır".

Statistikaya görə, 2019-cu ilin yayında Qeqarkunikdə 230 minə yaxın insan yaşayırdı ki, onların da əksəriyyəti kəndlərdə məskunlaşmışdı. Lakin pandemiya, 44 günlük müharibə və Azərbaycanla sərhəddəki müntəzəm toqquşmalar vəziyyətə xeyli təsir edib: regionun əhalisi 13 min nəfər azalıb.

Sevan sakinləri qeyd edirlər ki, gənclərin əksəriyyəti İrəvana köçməyə üstünlük verir, çünki Sevanda iş yeri çox azdır, dövlət müəssisələri isə ümumiyyətlə, yoxdur. Qeqarkunik rəsmi statistikaya görə, Ermənistanın ən yoxsul rayonlarından biridir: burada hər üçüncü şəxs yoxsulluq həddində yaşayır və ifrat yoxsulluq səviyyəsi ölkədə ən yüksək həddədir.

"AzadlıqRadiosu"nun erməni xidmətinin müxbiri ilə söhbətlərində Qeqarkunik sakinləri şikayət edirlər ki, həyat getdikcə çətinləşir: insanlar getdikcə yoxsullaşır, fəlakətli pul çatışmazlığı var və ildən-ilə sağ qalmaq çətinləşir. Onların fikrincə, hökumət bu problemləri həll etmək iqtidarında deyil.

**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov "Yeni Müsavat"a bildirdi ki, 44 günlük Vətən müharibəsində Ermənistan Silahlı Qüvvələri arsenalının 70 faizini itirdi:** "Sərhəd zonasında son zamanlarda atəşkəs pozulması halları baş verir. Sərhədlər hələ tam müəyyənləşməyib, sülh müqaviləsi imzalanmayıb. Ermənistan əhalisində müharibədəki məğlubiyyətdən sonra bir qorxu sindromu əmələ gəlib. 2020-ci ilədək onlar özlərini qalib, məğlubedilməz, qorxmaz bir xalq kimi hiss edirdilər. 2020-ci ildə 44 günlük müharibədən sonra və 2023-cü ilin sentyabrından sonra ermənilərdə özləri haqda tamamilə bunun əksi olan fikir formalaşdı. Bu da onlarda qorxu hissini dərinləşdirir. Ermənistanın Azərbaycanla şərti sərhədlərə yaxın yaşayış məntəqələrində yaşayan ermənilərin köçməsi həm də bununla bağlıdır ki, ermənilər öz ölkələrinin kənar güclərin iradəsindən asılı olduğunu, hakimiyyətlərinin istənilən an asılı olduğu kənar güclərin sifarişi ilə hərbi avantüraya, Azərbaycanla hərbi qarşıdurmaya gedə biləcəyini düşünürlər. Və əmindirlər ki, rəsmi İrəvanın bu addımına güclü Azərbaycan dövləti çox sərt cavab verəcək. Ona görə də erməni əhali nə qədər ki, gec deyil köçmək, sərhədboyu ərazilərdən uzaqlaşmaq yolunu seçir. Yəni əslində erməni əhali öz hökumətlərindən, sınıq-salxaq ordularından arxayın deyil. Onlara təhlükə öz hakimiyyətləridir. Ona görə köçürlər. Şübhəsiz ki, köç prosesinə iqtisadi durumun get-gedə çətinləşməsi faktoru da təsir göstərir".

**Ekspert vurğuladı ki, Azərbaycan tərəfi vaxtaşırı olaraq Ermənistana sülh sazişi imzalamaq çağırışı edir. Lakin Ermənistan hakimiyyəti bu çağırışlara müsbət cavab vermir. Əksinə, tez-tez atəşkəsi pozurlar, sərhədlərin delimitasiya və demarkasiya prosesi irəliləmir, İrəvan süni yolla uzadır. Erməni əhali bu vəziyyəti və tendensiyanı izləyir və qorxu hissi onlarda daha da dərinləşir:** "40 mindən artıq insanın kəndləri tərk edib köçməsi Ermənistan üçün fəlakətdir. Onu da qeyd edim ki, köçənlərin çoxu Ermənistanı da tərk edib xarici ölkələrə üz tutur. Günahkar isə Ermənistan hakimiyyətidir. Ermənistan hakimiyyəti bilməlidir ki, Azərbaycanla sülh müqaviləsi imzalamadıqca, bu fəlakət get-gedə genişlənəcək. Bu fəlakətli prosesin dayandırılmasının yeganə yolu revanşizmdən imtina etmək, sərhədlərin müəyyənləşdirilməsi, sülh müqaviləsinin imzalanması, Zəngəzur yolunun açılmasıdır. İrəvan bu addımları atsa, Ermənistan əhalisinin, əsasən də sərhədə yaxın ərazilərdə yaşayan əhalinin iqtisadi vəziyyəti də get-gedə yaxşılaşacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 154 (8527) 29 avqust 2024

# Bayramovun bəyanatı, Paşinyanın kadr dəyişiklikləri anonsu - konstitusiya islahatına hazırlıq, yoxsa...

## Deputat: "Yaxın zamanlarda bir çərçivə sənədini razılaşdıraraq təsdiq etmək mümkündür"

**Türkiyədə səfərdə olan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov türkiyəli həmkarı Hakan Fidanla Ankarada keçirdiyi birgə mətbuat konfransında mühüm açıqlamalar verib. O deyib ki, Azərbaycan regionda davamlı sülhün təmin edilməsi üçün tarixi şansın olduğunu hesab edir.**

O diqqətə çatdırıb ki, məhz bu səbəbdən Azərbaycan tərəfi Ermənistana sülh sazişinin layihəsini, 5 baza prinsipini təqdim edib: "Baxmayaraq ki, danışıqlar prosesində müsbət dinamika müşahidə olunur, saziş layihəsinin əhəmiyyətli hissəsi razılaşdırılıb, amma hələ də Ermənistan Konstitusiyasında və bir sıra digər normativ hüquqi aktlarda Azərbaycana qarşı ərazi iddiaları mövcudluğunu saxlayır. Eyni zamanda bu da sirr deyil ki, Ermənistanın Türkiyə Cümhuriyyətinə qarşı da ərazi iddiaları mövcuddur. Hazırda sülh sazişinin başa çatdırılması üçün əsas əngəl məhz Ermənistan konstitusiyasında ölkələrimizə qarşı ərazi iddialarıdır".

Bundan bir gün əvvəl isə Paşinyan konstitusiya dəyişikliklərinin qaçılmaz olması barədə açıqlama vermişdi. Bu zaman onu bəzi erməni siyasətçilər topa tutmuşdu. Sirr deyil ki, Ermənistanda bir çox dairələr sülhün baş tutmasında və bu kontekstdə konstitusiyadakı mürtəce maddələrin ləğvində maraqlı deyil və buna əngəllər törədir.

O da maraqlıdır ki, məlum bəyanatından bir gün sonra Paşinyanın yaxın vaxtlarda hökumətdə kadr dəyişikliklərinə başlayacağı barədə məlumatlar açıqlanıb.

Erməni mediası yazır ki, yeni strategiyaya görə N. Paşinyan nazirlərin bəzilərini istefaya göndərmək qərarında qətiyyətlidir.

Artıq belə düşünmək olarmı ki, Paşinyan konstitusiya dəyişikliklərinə ön hazırlıq görür?

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifov** "Ermənistan indi bütün dünyaya haray salıb ki, Azərbaycanla sülh müqaviləsi imzalamaq istəyir, lakin Azərbaycan bunu əngəlləyir", - deyə qeyd etdi: "Qərbin aparıcı dövlətləri də ermənilərin bu "harayına" cavab olaraq Azərbaycanın üzərinə gəlirlər. Bəs 30 il Azərbaycan sülh istəyəndə nədən Qərb belə aktivlik nümayiş etdirmirdi? Biz dəfələrlə yazmışıq və dəfələrlə efirlərdən səsləndirmişik - Ermənistan Konstitusiyasına əlavə etdiyi müstəqillik bəyannaməsindən Azərbaycan və Türkiyə torpaqlarına qarşı iddiaları və yalançı erməni soyqırımı müddəasını çıxarmayınca, onunla sülh müqaviləsi bağlamaq olmaz! Ermənistan Konstitusiyasından bu mürtəce maddələri çıxarmayana qədər onunla sülh müqaviləsi bağlamaq olduqca riskli və təhlükəlidir. Erməni xislətini bilə-bilə Ermənistan hökumətinin indiki vədlərinə inanmaq qədər sadəlövhlük, ermənilərin başımıza gətirdikləri bunca müsibətlərdən sonra böyük yanlış olardı. Ermənistan nə vaxt konstitusiyasından barəsində danışdığımız mürtəce müddəaları çıxararsa, o zaman onunla sülh müqaviləsi bağlana bilər. Bunun alternativi yoxdur".

**VI Çağırış Milli Məclisin deputatı Azər Badamov bu səfərlə bağlı bir çox vacib məqamlara diqqət çəkdi:** "Azərbaycan və Türkiyə XİN rəhbərlərinin görüşü zamanı Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması məsələsi müzakirə olunub. Sülh müqaviləsini imzalamaq üçün Azərbaycanın konstitusiya ilə bağlı tələbini Ermənistan mütləq şəkildə icra etməlidir və onun alternativi yoxdur. Paşinyan konstitusiya dəyişikliyinin edilməsinin vacibliyini müxtəlif şəkillərdə öz ictimaiyyətinə çatdırıb. Bir neçə ay əvvəl Paşinyan demişdi ki, Ermənistanla bağlı köhnə ideyalar bir keçmiş kimi arxivə qoyulmalıdır. Hətta Ermənistanın qırmızı libasda hərəkətə davam etməsinin mümkün olmadığını da bildirmişdi. İndi isə Paşinyanın hökumətində dəyişikliklərin ediləcəyi ilə bağlı məlumatlar səslənir. Təbii ki, Ermənistanda konstitusiyanın dəyişdirilməsinin yaxın zamanda baş tutacağına inanmıram. Çünki Paşinyan konstitusiya ilə bağlı məsələni gündəmə gətirəndə radikal müxalifət bu məsələdən öz məqsədləri üçün istifadə edir və çevriliş etmək üçün xalqı ayağa qaldırmağa çalışır. Ermənistanın radikal müxalifəti bir müddət əvvəl hakimiyyətdə çevriliş etmək üçün sərhədlərin delimitasiyası məsələsini bəhanə gətirirdisə, indi də konstitusiyanın dəyişdirilməsinin yolverilməzliyini bəhanə gətirirlər. Onlar xalqı Paşinyana qarşı qaldırmaq üçün fürsət və bəhanə axtarışındadırlar. Biz 2027-ci ildə Ermənistanda seçkilərin keçiriləcəyini nəzərə alsaq deyə bilərik ki, Paşinyanın konstitusiya dəyişiklikləri ilə bağlı prosesə başlayacağı çətin görünür. Çünki Baqratın başçılıq etdiyi etiraz aksiyaları bu yaxınlarda səngiyib və Paşinyan üçün yenidən hökumətdə etirazların baş qaldırması maraqlı deyil. Amma konstitusiya dəyişikliklərinin edilməsi də çox vacib məsələdir. Azərbaycanla Ermənistan arasında yaxın zamanlarda bir çərçivə sənədini razılaşdıraraq təsdiq etmək mümkündür. Bu çərçivə sənədində Ermənistanın konstitusiyasında dəyişikliklərin edilməsi və kommunikasiyaların açılması ilə bağlı məsələləri sonraya saxlamaqla Ermənistanın bununla bağlı öhdəlik götürəcəyi bir bəndin salınacağı gözlənilləndir. Yekun sülh sənəd imzalananda isə Ermənistan mütləq şəkildə konstitusiyasını dəyişməli, qonşu ölkələrə qarşı olan ərazi iddialarından rəsmi şəkildə əl çəkdiyini və qonşuluq münasibətlərində sülh içərisində yaşamağa hazır olduqlarını bəyan etməlidir. Bu təkcə Azərbaycanın deyil, həm də Türkiyənin və Gürcüstanın da tələbidir. Bu tələb beynəlxalq hüquqa əsaslanıb. Çünki suveren ölkələr bir-birinin ərazi bütövlüyünə hörmətlə yanaşmalı və tərəflər gələcəkdə sülhün pozulmasına imkan verəcək meyllərdən və çağırışlardan rəsmi şəkildə imtina etməlidir".

**Politoloq Natiq Miri Ceyhun Bayramovun Türkiyə səfərini son hadisələrlə əlaqələndirir:** "Gözlənilmədən Ukraynanın Rusiyanın Kursk vilayətinə hərbi müdaxiləsi baş verdi və yeni situasiya yarandı. Bu da müharibədə yeni mərhələnin başlanğıcı deməkdir. Putini təcili Bakıya gətirən əsas səbəblərdən biri də məhz bu yeni vəziyyətlə əlaqədardır. Çünki Kursk vilayətindəki bəzi ərazilərin Kiyevin nəzarətinə keçməsi bir neçə Avropa ölkəsinin Rusiya qazı ilə təminatında problem yaratdı. Bunun da arxasında ABŞ dayanır. Bununla Vaşinqton Moskvaya mesaj verdi ki, artıq Rusiyanın istənilən bölgəsinə hərbi müdaxilə imkanı elan olunur. Moskva verilən bu mesajı anlamazsa, Rusiyanın dərinliklərindəki bütün hərbi strateji obyektlərin vurulması məsələsi də gündəmə gələ bilər. Bununla gələn ilin başlanğıcından Rusiyanın öz qazını sata bilməsi imkanı məhdudlaşır. Deməli, Rusiya ilə yeni bir bazarlıq predmetinə gedilir. Belə vəziyyətdə Azərbaycan və Türkiyə kimi qaz mərkəzinə çevrilən ölkələrin geosiyasi əhəmiyyəti artır. Bu isə ABŞ və bəzi Avropa ölkələrini qıcıqlandırır. Ona görə Kursk əməliyyatına dolayısı ilə həm də Azərbaycan və Türkiyəyə təzyiq elementi kimi baxılır. Vaşinqton sürətli qaydada, ABŞ, Avropa Birliyi və Ermənistanın şərtləri əsasında Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanmasını istəyir. Bu isə mümkün olmadığından Bakıya təzyiq edilir. Təzyiq mexanizmlərini neytrallaşdırmaq üçün Türkiyə ilə məsləhətləşmə, birgə davranış və siyasətə ehtiyac var. Həm Rusiya, həm də Azərbaycanla Türkiyə üçün qeyri-müəyyənlik yaradılır. Bu istiqamətdə Azərbaycan, Türkiyə və Rusiyanın müəyyən maraqları uzlaşmaqdadır".

**Türkiyənin ölkəmizdəki keçmiş hərbi attaşesi, general Yücel Karaüz isə "Sherg.az"a açıqlamasında deyib ki, Türkiyə ilə Azərbaycan arasında hər məsələdə olduğu kimi, Cənubi Qafqaza sülh və sabitliyin əmin-amanlığın gəlməsi, Türk dünyası ailəsində həyata keçirilən siyasətin koordinasiyalı olması üçün davamlı əlaqələr mövcuddur. Generalın sözlərinə görə, iki qardaş ölkə arasında hər mövzuda ortaq müzakirələrin aparılması artıq ənənə halını alıb:** "Ötən müddət ərzində ya Azərbaycanın xarici işlər naziri, yaxud Türkiyənin XİN rəhbəri qarşılıqlı ziyarət ediblər. Həmçinin həftədə ən azı bir dəfə əlaqə saxlayır, görüşür və atılacaq birgə addımları koordinasiya edirlər. Rusiya dövlət başçısı Vladimir Putinin Bakıya gəlişi, o cümlədən Prezident İlham Əliyevin Özbəkistana səfəri, Azərbaycanın BRİKS-ə üzv olma məsələsi, Qərbdən Bakıya təzyiqlərin artması və s. prosesləri nəzərə alsaq, müzakirə predmeti olacaq və ortaq qərarlar alınacaq mühüm məsələlərin olduğunu görərik. Belə məqamlarda ortaq siyasətin həyata keçirilməsi istiqamətində məsləhətləşmələr çox önəmlidir. Dolayısı ilə Bakı və Ankaranın Şuşa Bəyannaməsi çərçivəsində atdığı addımlar dosta güvən, düşmənə qorxu verməkdədir. Aramıza nifaq salmağa çalışanlara da çox gözəl bir dərsdir. Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı əbədi, əzəli və sarsılmazdır. Heç bir kənar güc və qüvvə bu qardaşlığı test etməyə cəhd göstərməsin".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**





## Peskov: "Rusiya Türkiyədə qaz qovşağı yaratmağı planlaşdırır"

**Ukraynanın Rusiya qazının tranziti müqaviləsini uzatmaqdan imtina etməsi avropalı istehlakçıların maraqlarına ciddi ziyan vuracaq, Rusiya Federasiyasının isə alternativ tədarük marşrutları var.**

"Report" TASS-a istinadən xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

"Əlbəttə, Ukrayna tərəfinin belə bir qərarı avropalı istehlakçıların maraqlarına da ciddi ziyan vuracaq", - o, jurnalistlərə bildirib.

Mətbuat katibi qeyd edib ki, Rusiyanın Avropaya alternativ təchizat marşrutları var.

"Alternativ marşrutlar var, Türkiyədə qovşağın yaradılması planlaşdırılır və bununla bağlı iş gedir", - D.Peskov əlavə edib.

Yeni Müsavat
N 154 (8527) 29 avqust 2024

# Seçkinin son 2 günü - ölkə boyunca kampaniya necə keçdi

**Sentyabrın 1-də Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar deputatlığa namizədlərin təbliğat-təşviqat kampaniyası aparması üçün bu gün və sabah vaxtları var. Həftənin şənbə günü - avqustun 31-i Azərbaycanda “sükut günü”dür. Seçki qanunvericiliyinə görə, parlament seçkisi ilə əlaqədar həmin gün seçkiqabağı təşviqat aparıla bilməz.**

## Seçkini 112 minə yaxın müşahidəçi izləyəcək, 227 nəfəri ATƏT DTİHB-nindir

Deputatlığa 1052 nəfərin namizədliyi qeydə alınsa da 61 nəfər sonradan namizədlikdən geri çəkilib. Bu səbəbdən parlament seçkiləri ilə bağlı çap olunan bülletenlərdə 991 namizədin adı qeyd edilib. 125 saylı Zəngilan seçki dairəsindən deputatlığa namizəd Nəsiman Yaqublu bir neçə gün öncə nəqliyyat qəzası nəticəsində həlak olduğu üçün hazırkı vəziyyətə görə seçkidə 990 namizəd mübarizə aparır.

Sentyabrın 1-də Milli Məclisə keçiriləcək seçkilərdə ilk dəfə səsvermə hüququ yaranan şəxslərin sayı 51 min 141 nəfərdir.

Seçki ekspertlərinin rəyinə görə, başa çatmaqda olan seçki kampaniyası Azərbaycanda indiyə qədər keçirilən parlament seçkiləri kampaniyaları sırasında ən sakit, gərginliklər yaşanmayan seçki kampaniyası oldu.




Namizədlərin sırasında aktiv, parlaq təbliğat-təşviqat kampaniyası aparanlar olsa da onların sayı elə də çox deyil. Namizədliyi ləğv edilən isə olmayıb.

“Sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərinə hazırlıq, namizədlərin qeydə alınması normal səviyyədə həyata keçirildi”. “Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında qurum sədri Məzahir Pənahov deyib. O bildirib ki, proses zamanı sənədləri yerində olmayan iddiaçılardan başqa müraciət edən hər kəsin namizədliyi qeydə alınıb: "Təşviqat mərhələsinə gəlincə, çox geniş imkanlar yaradıldı, seçicilərə harada görüş imkani var idisə, orada da yer ayrıldı. Ona görə təşviqatla əlaqədar heç bir müraciət daxil olmadı”.

**M.Pənahov deyib ki, bəzi seçicilərin şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti başa çatıb:** “Rəsmi olaraq seçicilərin hamısına bildiririk ki, bu, onların səs verməsinə məhdudiyyət yaratmayacaq. Seçicilər həmin vəsiqə ilə məntəqəyə gedəcəklər və onlara şərait yaradılacaq ki, səsvermə hüququndan istifadə etsinlər. Yeni seçicilər vaxtı ötmüş şəxsiyyət vəsiqələrinə görə narahat olmasınlar”.

MSK sədri həmçinin qeyd edib ki, Milli Məclisə sentyabrın 1-də keçiriləcək seçkilərə hazırlıqla bağlı beynəlxalq qurumların heç bir iradı olmayıb. Seçkilərdə təhlükəsizliyin təmin olunmasına və qanunvericiliyin tələblərinə riayət edilməsinə ciddi şəkildə riayət olunub.

**M.Pənahov bildirib ki, Seçki Məcəlləsinin tələbinə əsasən, dairə seçki komissiyalarında seçki üçün lazımi infrastrukturun təmin edilməsi vacibdir:** “Dairə və məntəqələrin hamısına verilən inzibati binalar bütün tələblərə uyğundur. Xüsusilə azad olunmuş ərazilərdə elə binalar seçilib ki, orada seçki üçün hər şərait var. Oradakı tikililər yüksək standartlara cavab verir və bütün bölgələrə nümunədir”.

MSK sədri deyib ki, sentyabrın 1-də Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərlə əlaqədar 604 nəfər beynəlxalq müşahidəçi qeydiyyatdan keçib. Beynəlxalq müşahidəçilərin 227 nəfəri ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun müşahidəçiləridir.

111 min 200-ə yaxın yerli müşahidəçi qeydə alınıb. 25 siyasi partiyanın 65 minə yaxın müşahidəçisi qeydiyyatdan keçib.

MSK sədri işğaldan azad edilmiş ərazilərdə yaradılan seçki məntəqələrinin sayının növbəti dövrlərdə artırılacağını da açıqlayıb. O qeyd edib ki, Böyük Qayıdış prosesi genişləndirildikcə, məntəqələrin də sayı artırılacaq. Bu seçkilərdə isə həmin ərazilərdə 54 məntəqə fəaliyyət göstərir.

**MSK sədrinin müavini Rövzət Qasımov** isə bildirib ki, Mərkəzi Seçki Komissiyasına namizədlərin seçkiqabağı təşviqatla bağlı qanun pozuntusuna yol verməsinə dair heç bir müraciət daxil olmayıb.

**O bildirib ki, namizədlərin təşviqat kampaniyası indiyədək bir-birilərinə qarşılıqlı hörmət şəraitində və sakit atmosferdə davam edir:** “Namizədlər öz məlumat, ismarış və platformalarını seçicilərinə aydın formada çatdırır, onların suallarını cavablandırırlar. Bir məlumatı da qeyd edim ki, MSK-nın 115 nömrəli "Qaynar xətt"inə indiyədək barmaqla sayılacaq qədər müraciət daxil olub. Onların mütləq əksəriyyəti sorğu xarakterlidir. Yaxud da seçki subyektləri tərəfindən hüquqi məsələlər barədə “Qaynar xətt”imizə müəyyən suallar ünvanlanıb. Təşviqat üçün ayrılan yerlərlə bağlı da suallar olub. Bildiyiniz kimi, namizədlərin seçkiqabağı təşviqatı üçün geniş və hərtərəfli imkanlar təmin olunub, təşviqat prosesinin daha geniş vüsət alması üçün MSK müvafiq qurumlarla birgə 5 min 506 yer müəyyənləşdirib və həmin yerlər barədə ətraflı məlumat ictimailəşdirilərək seçicilərin və təşviqat subyektlərinin diqqətinə çatdırılıb. Ayrılan yerlərdən 3469-u açıq, 2037-si isə qapalıdır. Bütün bu yerlər avqustun 31-i saat 8:00-dək namizədlərin sərəncamındadır”.

Seçkilərə ən çox sayda müşahidəçi cəlb edən beynəlxalq təşkilat ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Seçki Müşahidə Missiyasının rəhbəri Ditmir Buşati və missiyanın media analitiki Kira Kalinina Azərbaycan Mətbuat Şurasında oldular.

Mətbuat Şurası İdarə Heyətinin üzvləri - qurumun beynəlxalq əlaqələr komissiyasının sədri Müşfiq Ələsgərli, komissiyanın təmsilçiləri Yeganə Hacıyeva və Azər Həsrətin, həmçinin şuranın icraçı katibi Əvəz Rüstəmovun iştirak etdiyi görüşdə ölkəmizdə medianın seçkidə iştirakı ilə bağlı məsələlərə dair suallar cavablandırılıb, MŞ-nin seçki ilə bağlı fəaliyyəti haqda bəhs açılıb. Bildirilib ki, qurum seçkiqabağı təşviqat mərhələsinin media orqanlarında işıqlandırılması ilə bağlı monitorinq aparır. Eyni zamanda seçki günü medianın prosesi işıqlandırması vəziyyəti də diqqətdə saxlanılacaq.

Qeyd edilib ki, monitorinq əsasən ölkənin tanınmış, ictimai rəyə təsir göstərən media subyektlərində aparılır, ədalətli rəqabətə zərər gətirən “qara piar” təmayülləri diqqətdə saxlanılır, belə hallar baş verdiyi təqdirdə, bunun yolverilməzliyinə dair müvafiq tövsiyələr ünvanlanır. Seçki günü isə şuranın əvvəlcədən müəyyənləşdirilmiş mobil və şəhər telefon nömrələri “Qaynar xətt” rejimində fəaliyyət göstərəcək. Prosesi işıqlandıran jurnalistlər səsvermə başladığı andan bitənədək həmin nömrələrlə əlaqə saxlayaraq, mümkün çətinlik və anlaşılmazlıqlar barədə məlumat vermək imkanı qazanacaqlar.

Bundan başqa seçki günü MŞ-nin İdarə Heyətinin üzvləri, eyni zamanda Mərkəzi Seçki Komissiyasında müşahidəçi kimi qeydiyyata alınmış üzvləri də seçkidə jurnalistlərin iştirakının monitorinqini aparacaqlar, ayrı-ayrı məntəqələrdə onlara yaradılmış şəraitlə tanış olacaqlar.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**



## “AŞ PA qarşısında sərt mövqe qoymasaq...” - partiya sədrindən sərt açıqlama

**“Hesab edirəm ki, Azərbaycanın mövqeyi tamamilə haqlıdır. Azərbaycana qarşı ədalətsiz, qərəzli mövqe tutulursa, cavab verilməlidir. Birinci addımı onlar atdılar. Heç bir əsas gətirmədən, yalançı, uydurma ittihamlar irəli sürüblər. Ortada heç bir fakt yoxdur. Azərbaycanın nümayəndələrini geri çağırması doğru qərar idi”.**

Bu fikirləri Musavat.com-a Azad Vətən Partiyasının sədri Akif Nağı AŞ PA-da Almaniya nümayəndə heyətinin sədri Frank Şvabenin fikirlərini şərh edərkən bildirib. O qeyd edib ki, Azərbaycandan üzr istədikdən sonra AŞ PA ilə bağlı fikir dəyişə bilər: “AŞ PA Azərbaycana lazım deyil. İllərlə ancaq yalançı, qərəzli mövqe görmüşük. Onsuz da bəzi deputatlar səs-küy salmaq üçün bəhanə axtarırlar. Onlar Azərbaycana dəvətsiz gəlmək istəyirdilər, buna görə onlara icazə verilmədi. Hesab edirəm ki, bu, doğru mövqedir. Vicdanını satmış AŞ PA deputatları Azərbaycana gəlsələr, yenidən bizə böhtan atacaqlar. Seçkidə müşahidəçi olmaq üçün heç bir mənə yoxdur. Sadəcə, Azərbaycan bu məsələdə prinsipial mövqe sərgiləyir, AŞ PA-nın mövqeyinə qarşı öz mövqeyini ortaya qoyur. Onların qarşısında sərt mövqe qoymasaq, üzərimizə yeriyə bilərlər. Bəzi deputatların boş, mənasız, qərəzli hücumlarını saymamalıyıq. Azərbaycanı dünya tanıyır, mövqeyimizi qəbul edirlər. COP29-a hazırlıq sürətlə gedir. Əksər dövlət başçıları tədbirdə iştirak etməyə qərar verib. AŞ PA, yaxud hər hansı başqa qərəzli təşkilatın Azərbaycanla bağlı rəyini nəzərə almağa ehtiyac yoxdur”.

❑ **Nigar HƏSƏNLİ, Musavat.com**

YENİ MÜSAVAT
N 154 (8527) 29 avqust 2024

# Naxçıvanla sərhəddə erməni təxribatları artır - səbəb...

Xeyli müddət davam edən kövrək sabitlik fonunda Ermənistan ordusu atəşkəsi tez-tez pozmağa başlayıb; delimitasiya edilmiş hissədə hər iki tərəfin hərbçiləri dil tapırsa, sərhədin digər istiqamətlərində nə üçün atəş açılır?



**Avqustun 28-i saat 06:45 radələrində Ermənistan Silahlı Qüvvələrinin bölmələri Dəvəli rayonunun Arazdəyən yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutub.**

"Yeni Müsavat" qeyd edir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Ermənistan son günlər Naxçıvan istiqamətində atəşkəsi tez-tez pozmağa başlayıb. Naxçıvanla yanaşı Kəlbəcərdəki mövqelərimizin də atəşə tutulması baş verib. Sərhəddə xeyli müddətdir ki, davam edən kövrək sabitlik fonunda erməni ordusunun bu təxribatları müxtəlif versiyalarla izah olunur. Azərbaycanla sərhədin dəqiqləşdirilməsi üçün Ermənistan addım atmalı olduğu halda, atəş açmaqla gərginlik yaradır. Bu da daha çox blokadada olan nəqliyyat kommunikasiyalarının açılmasının vacibliyi haqda səslənən son çağırışlar fonunda diqqət cəlb edir. Ermənistanı həvəsləndirən həm də yeni aldığı silahlardan istifadədir.

İrəvanın atəşkəsi pozması Rusiya liderinin Bakıda olduğu vaxta da təsadüf etmişdi. Kreml bu məsələyə cavabında bildirmişdi ki, prezident Putinin Azərbaycanda olarkən Ermənistanın sərhəddə atəşkəsi pozmasından məlumatlıdırlar və hər zaman tərəfləri təmkinli olmağa çağırırlar. Lakin rəsmi İrəvan bu təxribatlara münasibət bildirmir. Hətta bir müddət əvvəl baş nazir Nikol Paşinyan təklif etmişdi ki, atəşkəsə nəzarət mexanizmi üçün birgə komissiya yaradılsın. Təbii ki, burada Ermənistanın hiyləgərliyi hiss olunurdu. Sadəcə, İrəvan Qərbdəki tərəfdaşlarının bölgəyə diqqətini cəlb etmək naminə bu priyomlardan yararlanır. Bundan başqa, Laçın rayon mərkəzindən hava yolu ilə təxminən 16 km məsafədə yerləşən Gorus rayonu, Qaraşen kəndi yaxınlığında Ermənistan ordusunun yaratdığı yeni hərbi hissənin görüntüləri yayılıb.

Peyk görüntülərindən bu hərbi hissənin əlahiddə artilleriya divizionu olduğu və qoşquda daşınan səkkiz ədəd artilleriya qurğusu ilə təchiz edildiyi müəyyən olunub. Ermənistanın hücum silahlarını məhz Azərbaycanla sərhədin yaxınlığında yerləşdirməsi, şübhəsiz ki, bu ölkənin yeni təxribatlara və eskalasiyaya hazırlaşdığından xəbər verir. Bu hazırlıq və provokasiyaların bir başqa səbəbi isə COP29 tədbirlərinin ölkəmizdə keçiriləcəyi ərəfədə gərginlik yaratmaq xülyasıdır. Halbuki Azərbaycan Ordusunun gücünə ermənilər bələddir, ağır cavab tədbirlərinə əl atsaq, qarşı tərəf yenə xeyli sayda hərbçisini itirəcək. Bununla yanaşı, Azərbaycan təmkinlidir və kövrək sülh danışıqları prosesinə zərər vuran bu addımlardan Ermənistanın əl çəkəcəyini gözləməkdədir.

Kirantsda 40 ədəd sərhəd direyi quraşdırılıb. Ermənistan Sərhəd Qoşunlarının qurucu komandiri, Ali Şuranın üzvü Levon Stepanyan belə deyib. O, hazırda demarkasiya prosesinin dayandırılmasına toxunaraq bildirib ki, çox güman ki, bu, hansısa siyasi məsələlərlə bağlıdır. Stepanyan jurnalistin "qəsəbəni sərhəddən ayıran neytral zona olmalı deyilmi?" sualına belə cavab verib: "Sərhəd demarkasiya olunanda qarşı ölkənin nümayəndəsi sərhədin son millimetrinə qədər yaxınlaşa bilər və biz ona heç bir qadağa qoya bilmərik, belə bir şey yoxdur. "Neytral zona" anlayışına yalnız Vladimir Vısotskinin mahnısında rast gəlinir: "Neytral zona" anlayışına başqa yerdə rast gəlməmişəm. Sərhəddə neytral zona yoxdur. Məsələ odur ki, sərhəd rejimi dövlətlərarası müqavilə ilə müəyyən edilir".

**Erməni komandirin sözlərinə görə, demarkasiya olunmuş ərazilərdə hər iki tərəfdə sərhədçilər var:** "Bu dəqiqdir, bilirəm ki, onlar hətta əməkdaşlıq edirlər. Problem varsa, sərhədçilər bir-birini danışıqlara dəvət edir, məsələ həll olunur, öz aralarında olan münaqişələri həll edirlər. Hər hansı sual yaranarsa, sərhədçilərin dəvət etmə proseduru var: onlar razılaşdırılmış hansısa bayrağı qaldırırlar, istər ağ, istər qırmızı. Qarşı tərəf də eyni bayrağı qaldırırsa, bu, razılaşma sayılır. Müəyyən olunmuş yerdə görüşüb münaqişə və ya hansısa vəziyyəti müzakirə edirlər". O, jurnalistin Azərbaycan sərhədçilərində müxtəlif növ silahların olması ilə bağlı sualına da istənilən cavabı verməyib. Stepanyan qeyd edib ki, beynəlxalq qanunlarda sərhədçilərin silaha malik olub-olmamasını qadağan edən normativ akt yoxdur. Göründüyü kimi, sərhədin delimitasiya edilmiş hissəsində azərbaycanlı və erməni hərbçilər təmas qura, yaranmış problemi həll edə bilirlərsə, o zaman sərhədin Naxçıvan və ya Kəlbəcər istiqamətində ermənilər nə üçün atəşkəsi pozurlar?

**Siyasi ekspert Oqtay Qasımovun** "Yeni Müsavat"a bildirdiyinə görə, antiterror əməliyyatının ildönümü yaxınlaşdıqca sərhəddə erməni təxribatları artır və bununla Qarabağ erməniləri diqqət mərkəzinə gətirilir. Analitik ikinci səbəb kimi COP29 tədbirləri ərəfəsində gərginlik yaradılmasını görür. Onun fikrincə, üçüncü faktor isə bölgədə maraqları olan ölkələrin diqqətini cəlb etməkdir və Ermənistan bu niyyətlə təxribatlara yol verir: "Ermənistan ABŞ, Fransa və Hindistandan silahlanır. Bu, cənub qonşumuzun xoşuna gəlmir. Amma Qərbin regiona yerləşməsini sürətləndirmək, alınan silahları yoxlamaq və Rusiyanı Cənubi Qafqazdan çıxarmaq məqsədi olduğu üçün bu addımlar davam edir. Zənnimcə, bununla həm də göstərmək istəyirlər ki, Ermənistan ordusu müharibədən sonra guya potensialını yaxşılaşdırır".

**Siyasi şərhçi Asif Nərimanlıya görə, Ermənistanın Naxçıvan istiqamətində atəşkəsi pozması iyundan etibarən aktiv mərhələyə keçən "sərhəd planı"nın tərkib hissəsidir və məqsəd Bakıya təklif etdikləri "atəşkəsə nəzarət mexanizmi"nin aktivləşdirilməsidir. Onun qənaəti budur ki, Ermənistan belə bir mexanizmlə şərti sərhədlərin dəyişməsi, xüsusilə mümkün hərbi ssenari ilə yenidən çəkilməsi perspektivinə qarşı "qalxan" əldə etmək niyyətindədir:** "Bu "qalxana" İrəvanın təklif etdiyi mexanizmə beynəlxalq nəzarətin cəlb edilməsi ilə nail ola bilərlər. Və bu ssenaridə Qərb ölkələrinin, xüsusilə ABŞ-ın hədəfi "nəzarət" adı altında qüvvələrini Azərbaycan-Ermənistan sərhədinə yerləşdirmək, bölgədəki mövqelərini gücləndirməkdir. Planın ABŞ tərəfindən hazırlandığı istisna deyil. Görünür, Naxçıvan istiqamətində baş verənlər Bakıya "xəbərdarlıq atəşi"dir. Və davamlı olacağı, xüsusilə yaxın günlərdə intensiv xarakter alacağı mümkün gözləntilərdəndir".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**




## Putin Prezident İlham Əliyevə zəng etdi - mühüm müzakirələr

### Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat dəhlizinin açılması ilə bağlı da fikir mübadiləsi aparılıb

**Avqustun 28-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Dövlət başçıları Prezident Vladimir Putinin Azərbaycana dövlət səfərinin nəticələrindən məmnunluqlarını ifadə ediblər. Prezidentlər səfər çərçivəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi istiqamətində aparılan fəaliyyətin Azərbaycanla Rusiya arasında tərəfdaşlıq və strateji müttəfiqlik münasibətlərinin daha da güclənməsinə xidmət edəcəyinə əminliklərini bildiriblər.**

Telefon söhbəti əsnasında Cənubi Qafqaz regionunda vəziyyət müzakirə olunub. Vladimir Putin Rusiyanın Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasına dəstək verməyə hazır olduğunu deyib.

Telefon danışığı zamanı Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat dəhlizinin açılması ilə bağlı fikir mübadiləsi aparılıb.

YENİ MÜSAVAT
N 154 (8527) 29 avqust 2024



# Zibili hara atmalı

Zamin HACI
zaminhaci@gmail.com

**Son günlər uca millətimiz və hökumətimiz üçün zibil teması nədənsə çox aktual olmuşdur. Bəlkə sürətlə yaxınlaşan iqlim konfransına görədir. İmpulsu isə Qarabağda turistlərin ora-bura zibil atması vermişdir.**

Xalq əməllicə qəzəblənmişdir. Bir politoloq ərz etdi ki, daha geopolitikanın başını buraxır, torba götürüb Yer kürəsini zibildən təmizləyəcəkdir: "Kim mənim Ukrayna savaşı haqda şərhlərimi dinləmək istəsə, Bakıdakı Ukrayna dairəsinə gəlsin, orada xəkəndazla canlı yayım açacağam!"

Siyasi partiyalar bəyanat verdilər: "Zibil qutuları ətrafında birləşərək mübarizə aparacağıq!"

Siyasətə qarışmaq istəməyən laqeyd vətəndaşlar mızıldaşdılar: "Görün bizi zibilə salırsınızmı".

Hətta kimsə yazmışdı ki, şəhidlərimizin qanı axan torpağa zibil atmaq olmaz. Türkün sözü, "duyğu sümürüsü" idi. Şübhəsiz, yenə o tərəflərdən bir şairin kəlamı ilə söyləsək, "topraqları topraq yapan üstündəki qandır", ancaq vallah, billah, nəyə inanırsınızsa ona and içərəm ki, Bakıda torpağın sotunu bəzi yerlərdə 10 min manata satırlar. Halbuki burada da az qan axmayıb.

Polis nəfərlərinin reyd keçirməsi, yerə zibil atanların cərimə edilməsi, bu yöndə maarifləndirici propoqanda-filan da müsbət haldır. Məşhur məsəli parafraz eləsək, zibili özbaşına qoysan qutusunu batırar. Bəzən cəzalandırma yeganə tədbir növü, son variant kimi qalır.

Ancaq bütün bu haray-həşir zibillənmiş "Keçəlimizə" dərman olacaqmı? Olmayacaq. Çünki indiki halda problem hansısa axmağın təbiəti çirkləndirməsi deyil. Problem idarəçilikdədir, sistemlidir.

Adi bir sual verirəm: tutalım adam Laçına getdi, orada plastik qabda su içdi. Yaxud Şuşada guya qəmə düçar oldu, bir papiros yandırdı, obrazlı yazsaq, qəm tütəyini qoydu hicran deşiyinə. Bəs o ictimai-siyasi, romantik-bambılı fəaliyyətin son məhsulunu - su qabını və siqaret kötüyünü hara atmalıdır? Ay sağ olasan: zibil qabına! Əlbəttə. Buna şübhəmiz yoxdur. Yeganə düzgün, haqlı üsuldur. Lakin... Bəs sonra? Həmin zibil qabı hara boşaldılacaq? Niyə bu haqda sual verən yoxdur?

Guya Laçının, Şuşanın, Füzulinin və başqa rayonlarımızın zibilləri Bakıya daşınır, buradakı zavodda emal edilir? Yox. Haradasa orarlarda yenə təbiətin qoynuna atırlar.

Eh, siz Laçından danışın, o regionda ən böyük şəhərimiz Gəncənin zibil emalı obyekti yoxdur... Bu haqda Avropa Bankı ilə birgə projenin sənəd-sünədi indi, bu dəqiqə Gəncə İcra Hakimiyyətinin saytında durur. Faydası nədir? Heç zad. Özü də Gəncədə zibil zavodu neçənci ildə tikiləcəkdi, bilirsinizmi? 2010-cu ildə. 14 il keçib, Gəncənin zibilləri şəhər ətrafına atılır, guya hansısa açıq hava poliqonu var. Bu "poliqonun" nə demək olduğunu 2012-ci ilə qədərki Bakının sakinləri yaxşı bilir. O zamanlara qədər Balaxanı tərəfdə belə böyük zibillik vardı. Bütün paytaxtın zibili ora daşınırdı, çölə tökülürdü, tüstü, üfunət baş çatladırdı. Külək ordan Bakıya əsəndə paytaxtda nəfəs almaq olmurdu.

Pis çıxmasın, paytaxtın zibil problemini xeyli dərəcədə həll edən o zibil emalı kompleksini Fransanın CNİM şirkəti tikib, "açar-təhvili" prinsipiylə hökumətimizə vermişdi. Fransa ilə dost vaxtlarımız idi, indi münasibətlərin özünün zibili çıxıb.

Bakı ətrafında, xüsusilə Abşeron rayonunun kəndlərində zibil qutuları yoxdur. Yay günləri Görədil, Fatmayı, Mehdiabad tərəflərdən keçin. Yol qırağında zibil "emal edən" - birbaşa tonqal qurub yandıran xidmətçilər görərsiniz. Qutu olmadığı üçün camaat zibilləri darvazadan, hasardan asır. Bəzən küçə heyvanları torbaları cırır, havada kuloklar uçuşur, qarpız qabıqları, uşaq pamperslər, cürbəcür iyrəncliklər bir-birinə qarışır. Görəsən Abşeron rayonunda zibil qutuları qoymaq qadağandırmı?

Yoxsa Görədil müqəddəs sayılmır?



# Rusiyadan rəsmi nüvə təhdidi - Lavrov nə demək istədi?

## Ekspertlərə görə, Moskva bu ritorikadan çəkindirici məqsəd üçün istifadə edir, əslində isə indi nüvə bombası atmağa yox, Donetsk qələbəsini elan etməyə hazırlaşır

**Rusiya-Ukrayna müharibəsi başlayandan bəri bu savaşın gedişində nüvə silahının tətbiq edilə biləcəyinə dair anonslar verilir. Bir neçə dəfə Rusiya təmsilçiləri kritik anda, Rusiya ərazisinə hücum baş verəcəyi təqdirdə nüvə silahından istifadə edəcəyini istisna etməyiblər.**

Rusiya Təhlükəsizlik Şurası sədrinin müavini Dmitri Medvedyev də belə təhdidlər səsləndirib. Hazırda müharibə Rusiya ərazisinə keçib və coğrafiyası genişlənir. Belə vaxtda Rusiya xarici işlər naziri Sergey Lavrov təşviş yaradan açıqlama verib. "Hazırda Rusiyanın nüvə silahından istifadə doktrinası dəqiqləşdirilir" - deyən Lavrovun sözlərinə görə, Qərb ölkələri Rusiya ilə münaqişənin eskalasiyasında maraqlıdır və bu siyasətindən əl çəkmək niyyətində deyil. Beləliklə, artıq rəsmi səviyyədə nüvə silahından istifadə planına dair açıqlama verilir. Rusiya bu addımı atarsa, qarşılığı nə ola bilər? Ümumiyyətlə, ölkə rəhbərliyi bu addımı atarmı, nüvə bombasından istifadə edərmi?

**Hərbi ekspert Ramil Məmmədli nüvə təhdidlərini çəkindirici faktor hesab edir. Onun fikrincə, Rusiya bu dəhşətli bombadan istifadə ritorikasını gücləndirməklə qorxudur:** "Rusiya kritik anda taktiki nüvə başlığından istifadə edə bilər. Bu zaman bir şəhərin tamamilə yoxa çıxması mümkündür. Amma o an yetişməyib və Moskva zərurət görmür. Sözsüz ki, "soyuq müharibə"nin əsas elementlərindən biri tərəflərin nüvə silahı ilə bir-birini təhdid etməsidir. Eyni zamanda hibrid savaş getdiyini söyləmək lazımdır. SSRİ ilə ABŞ arasında görünməmiş bir "soyuq müharibə" indi yaşanmaqdadır. Hətta Karib böhranı belə olmamışdı. Lakin tərəflərin nüvə silahından istifadə etməsinə ehtiyac hiss olunmur. Rusiya öz ərazilərində genişmiqyaslı müharibənin başladığını görəcəksə, o zaman mümkün ola bilər. Kurskda olan ukraynalı hərbçiləri bölgədən çıxarmaq üçün nüvə bombası lazım deyil, onlar çox qala bilməyəcəklər, çünki canlı qüvvə sayında problemləri mövcuddur".

**Onun sözlərinə görə, Rusiya 6 minə yaxın nüvə başlığı olduğunu iddia edir:** "Əgər nüvə silahından istifadə etsə, Rusiya müharibədə öz vəziyyətini pisləşdirə bilər. Hazırda Kurskdan daha çox Pokrovski istiqamətinə diqqət yetirən Rusiya komandanlığı Donetskin inzibati sərhədlərinə çıxmağa hazırlaşır. Pokrovski hər iki tərəf üçün strateji nöqtədir. Burada ruslar nəzarəti təmin etsələr, Donetskin tam ələ keçirilməsi prosesi başa çatacaq. Ona görə Rusiya indi nüvə bombası atmağa yox, Donetsk qələbəsini elan etməyə hazırlaşır".

**Hərbi şərhçi onu da istisna etmir ki, müharibənin gedişində Kursk AES, yaxud Zaporojye AES zərər görə bilər:** "Rafael Qrossi Kursk Atom Elektrik Stansiyasına baxış keçirdi və nüvə təhlükəsini elan etdi. Gələn həftə də Kiyevə gedəcək. Putin də bildirmişdi ki, Ukrayna hərbçiləri Kursk Atom Elektrik Stansiyasına zərbə endirməyə cəhd edib, amma qarşısı alınıb. Həmçinin Zaporojye Atom Elektrik Stansiyası ətrafında da risklər qalır. Nəzərə alaq ki, Avropanın ən böyük AES-i hesab olunur. Bu mənada əsl təhdidlər sözügedən istiqamətlərdədir".

**Siyasi şərhçi Fuad Əliyev Rusiyanın təhdidlərinin daha çox Qərbə yönəldiyini güman edir. Onun ehtimalına görə, Avropada bir müharibə xofu var və Moskva tez-tez nüvə silahını yada salmaqla canlarına vəlvələ salmağa çalışır:** "Hələ ki hər şey buna getmir. Rusiya Kurskdan ukraynalıları çıxaracaq, Donbas əməliyyatını başa vurub möhkəmlənməyə çalışacaq. Sonra atəşkəs müzakirələri başlana bilər. İndi hər iki tərəf masada əlini gücləndirmək üçün cəbhədə nəticə əldə etməyə can atır. Çünki bütün müharibələr sonda sülhlə yekunlaşır. Rusiya nüvə bombasından istifadə etməyəcək və 4 regionda tam möhkəmləndikdən sonra danışıqlara razılaşacaq. Ancaq buna qədər Ukrayna Rusiyadan nəsə qopartmağa çalışır. Ona görə müharibə hələ o həddə çatmayıb ki, nüvə bombasına əl atmağa məcbur qalsınlar".

Nüvə silahlarının sayı barədə son dərəcə təxmini fikir yürütmək olar, amma Amerika Alimləri Federasiyasının hesablamalarına görə, Rusiyanın 5977 nüvə başlığı (nüvə partlayışı yaradan qurğu) var. Hərçənd bu saya artıq istismardan çıxarılmış və utilizasiyaya göndərilməli başlıqlar da daxildir. Yerdə qalan təxminən 4500 başlıq strateji nüvə silahı (nüvə başlıqlarını uzaq məsafələrə çatdıra bilən ballistik raket) hesab olunur. Nüvə müharibəsi dedikdə məhz bu növ silahlardan istifadə nəzərdə tutulur. Digərləri daha az dağıdıcı olan, döyüş meydanında və ya suda tətbiq edilən taktiki nüvə silahları hesab olunur. Bütün bunlar o demək deyil ki, Rusiyanın istifadəyə hazır minlərlə uzaqmənzilli raketi var. Mütəxəssislərin qiymətləndirməsinə görə, Rusiyanın 1500-ə yaxın nüvə başlığı, sadəcə olaraq, bazalarda, aerodromlarda və ya sualtı qayıqlarda yerləşdirilmiş vəziyyətdədir. Hazırda 9 ölkə nüvə silahına malikdir. Bunlar ABŞ, Çin, Böyük Britaniya, Fransa, Hindistan, Pakistan, İsrail, Rusiya və Şimali Koreyadır. Çin, Fransa, Rusiya, ABŞ və Böyük Britaniya və digər ölkələr (cəmi 191 dövlət) Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilə imzalayıb.

Bu müqavilədə onlar nüvə silahı ehtiyatlarını azaltmaq və nəzəri olaraq ondan tamamilə vaz keçmək öhdəliyi götürüblər. Həqiqətən də 1970-1980-ci illərdən sonrakı dövrdə bu ölkələr nüvə başlıqlarının sayını azaldıb. Amma Hindistan, Pakistan və İsrail bu müqaviləyə qoşulmayıb (İsrail nüvə silahına malik olduğunu rəsmən etiraf etməyib), Şimali Koreya isə 2003-cü ildə razılaşmadan çıxıb. İkinci Dünya müharibəsinin sonunda Xirosimaya atılan atom bombasının gücü "cəmi" 15 kiloton idi və 146 min insanın ölümünə səbəb olmuşdu. Müasir nüvə başlığının gücü 1000 kilotondan çox ola bilir. Belə bir döyüş başlığının partladığı ərazidə praktiki olaraq heç nə qalmır. Göz qamaşdıran bir parıltıdan sonra nəhəng alov topu (texniki baxımdan bu, son dərəcə intensiv işıq emissiyasıdır) və zərbə dalğası yaranır ki, ikisi birlikdə bir neçə kilometr radiusdakı bütün tikililəri məhv edir.

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

# 3+3 formatı yenidən gündəmə gələ bilər - seçkidən sonra...

## Azərbaycan Prezidentinin ideya müəllifi olduğu xilas layihəsi yenidən masaya qayıdacaq; Gürcüstanın ardınca Ermənistan da "daşı ətəyindən tökə bilər"

**İkinci Qarabağ savaşından sonra regionda sülh və əməkdaşlığın möhkəmlənməsi, bölgədə stabilliyin təmin edilməsi üçün müxtəlif variantlar təklif edildi. Bunlardan ən praqmatiki və bölgə üçün uzunmüddətli sülhü, əməkdaşlığı, təhlükəsizliyi təmin edəcək 3+3 formatı idi.**



**Deputat: "Artıq Gürcüstanın 3+3 formatında əməkdaşlıq etməsinə heç bir maneə yoxdur"**
**STM-in icraçı direktoru: "Gürcüstanın Rusiya ilə münasibətlərinin gərgin olması sadəcə bəhanə idi"**

Azərbaycanın dövlət başçısının irəli sürdüyü ideya qardaş Türkiyənin rəhbərliyi tərəfindən də dəstəkləndi, eyni zamanda Rusiyanın da müsbət münasibəti oldu. Bu mənada ideyanın gerçəkləşməsi istiqamətində 2022-2023-cü illərdə müxtəlif görüşlər keçirildi, lakin nəticə olmadı. Prosesi tormozlayan əsas səbəblərdən biri də Gürcüstan-Rusiya münasibətləri ilə bağlı oldu. Gürcüstan həmin dönəmdə Qərbin təsiri ilə Rusiyanın olduğu formatda yer almaqdan imtina edirdi. Lakin indi şərtlər dəyişib, Gürcüstan Qərbin boyunduruğundan çıxıb, müstəqil siyasət yürütməyə, bu kontekstdə Rusiya ilə münasibətləri yaxşılaşdırmağa çalışır. Doğru, praqmatik qərardır. Gürcüstanla Rusiyanın münasibətlərində artıq müəyyən yumşalmalar və əməkdaşlıq perspektivləri görünməkdədir. Bu arada Rusiyanın "Zolotaya korona" sürətli pulköçürmə sisteminin Gürcüstanda işi tam bərpa edilib. Gürcüstan Banklar Assosiasiyasının sədri Aleksandr Dzneladze deyib ki, sözügedən sistem normal rejimdə işləyir. Rusiya ilə Gürcüstan əlaqələrinin bərpası cəhdləri 3+3 formatını yenidən gündəmə gətirir. Ekspertlər bildirir ki, Gürcüstanda payızda keçiriləcək seçkilərdən sonra bu formatda müzakirələr başlaya bilər. Faktiki olaraq Qərblə Gürcüstan hakimiyyəti arasında uçurum yaranıb və belə olan təqdirdə artıq rəsmi Tiflisin 3+3 formatında iştirakına əngəl aradan qalxmış sayıla bilər. Hətta güman olunur ki, yeni reallıqlar fonunda Gürcüstanın ardınca Ermənistan da "daşı ətəyindən tökə bilər".

**Mövzu ilə bağlı müraciət etdiyimiz Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyasının sədri, deputat Qüdrət Həsənquliyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bölgədə yeni reallıqlar yaranıb:** "Əslində 3+3 formatı - hansı ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən irəli sürüldü, Türkiyə prezidenti bu ideyanı dəstəklədi, daha sonra Rusiya prezidenti də buna dəstək verdi - regionun inkişafı, bölgədə sabitliyin, təhlükəsizliyin təmin olunması baxımından çox mütərəqqi bir ideyadır. Yəni region dövlətləri bu ideyanın həyata keçirilməsi üçün əslində bacardıqlarını etməlidirlər. Gürcüstan son vaxtlara qədər özünü elə aparırdı ki, bu, qərbyönümlü, Rusiyadan məsafə saxlayan bir ölkədir. Ona görə də bu ideyaya açıq dəstək vermirdi. Amma son vaxtlar biz bilirik ki, Gürcüstanda Rusiya qanunu adlanan, QHT-lərdə şəffaflığın təmin olunması məqsədilə "Xarici təsirlərin şəffaflığı haqqında" yeni qanunun qəbulundan sonra artıq bütün pərdələ aradan qalxıb. Artıq Gürcüstan açıq formada Qərblə yollarını ayırıb və hakimiyyətin də Rusiyaya açıq simpatiyasının olması ortadadır. Fransanın keçmiş vətəndaşı olan Gürcüstan prezidenti Zurabaşvili açıq formada qərbyönümlü mövqe tutub və qərbyönümlü müxalifəti koordinasiya edir. "Gürcü arzusu"nun fəxri sədri Bidzina İvanişvili isə Rusiya ilə bağlı bir şəxsdir və bunu artıq gizlətmir. Görürsünüz, Rusiya Xarici Kəşfiyyat Xidmətinin başçısı Sergey Narışkin açıq şəkildə bəyan edib ki, biz Gürcüstanda Qərbin hazırladığı dövlət çevrilişinin qarşısını almaq üçün hər şeyi edəcəyik. Bu da onu göstərir ki, ölkələr açıq kartla oynayır. Bu baxımdan artıq Gürcüstanın 3+3 formatında əməkdaşlıq etməsinə heç bir maneə yoxdur. Digər tərəfdən Gürcüstanda da artıq Azərbaycanın 44 günlük savaşdakı qalibiyyətindən sonra bəyan ediblər ki, Rusiya ilə yaxınlaşmadan sonra biz də Abxaziya və Cənubi Osetiya üzərində dövlət suverenliyini bərpa edə bilərik. Yəni onlarda da bu ümidlər yaranır. Həmçinin hökumət əhaliyə də bu ümidləri verib, onlardan dəstək almaq istəyir. Bunlar Qərbi Rusiyaya Gürcüstana qarşı ikinci cəbhə açmağa təhrik etməkdə suçlayırlar".

**Q.Həsənquliyev əlavə etdi ki, Gürcüstan-Qərb münasibətləri artıq əvvəlki kimi deyil:** "Artıq Gürcüstana müəyyən sanksiyalar tətbiq olunub, bəzi birgə layihələrin icrası dayandırılıb. Yəni bu, seçkiqabağı Gürcüstan vətəndaşlarına, seçicilərinə ciddi bir mesajdır ki, biz kimi, hansı siyasi qüvvəni dəstəkləyirik. Bu mənada düşünürəm ki, Gürcüstanla bağlı problem olmayacaq. Seçkiləri İvanişvilinin fəxri sədri olduğu Gürcüstanın hakim "Gürcü Arzusu" Partiyasının udması çox realdır. Əgər 26 oktyabra qədər Rusiya-Ukrayna cəbhəsində Rusiyanın əleyhinə ciddi hadisələr baş verməsə, Rusiya bu savaşda zəif görsənməsə - yəni Rusiya həddən artıq zəifləyəcəyi təqdirdə, vətəndaşlar rusiyayönümlü siyasətə dəstək verməyə bilərlər - indiki şərait qorunub-saxlansa, Ukrayna cəbhədə ciddi irəliləyiş əldə edə bilməsə, vətəndaşlar yenə də İvanişvilini müdafiə edəcəklər. Çünki Saakaşvili və onun tərəfdarları zaman-zaman özlərini öldürürdülər ki, İvanişvili Rusiyanın adamıdır. Mən də hər zaman müsahibələrimdə deyirdim ki, bu, özünü nə qədər sadəlövh aparır. Fərqində deyil ki, insanlar rusiyayönümlü olduğuna görə İvanişviliyə səs verir.Vətəndaşlar artıq müəyyən reallıqları qəbul edib, Rusiya ilə əməkdaşlığa üstünlük verirlər. Torpaqlarının əllərindən alınmasına, Abxaziya və Osetiyanın müstəqilliyinin Rusiya tərəfindən tanınmasına baxmayaraq, həyat davam edir, insanlar normal yaşamaq istəyir. Bundan əlavə, insanların Rusiyada güclü diasporu, ciddi əlaqələri var. Eyni zamanda Gürcüstan kənd təsərrüfatı məhsullarını Rusiyaya satır, bu ölkə onlar üçün böyük bazardır. Qərb isə Gürcüstandan çox uzaqdır. Ona görə mən deyirəm ki, yerləşdiyin coğrafiyadan belə doğan bəzi reallıqlar var. Ona görə də ölkənin siyasətini müəyyənləşdirəndə sən hansı regionda yerləşdiyini, qonşularının kimlərdən ibarət olmasını, regional geosiyasi vəziyyəti nəzərə almalısan. Bu səbəbdən də, dediyim kimi, əgər Rusiya Ukrayna cəbhəsində böyük məğlubiyyətə uğramasa, yaqin 26 oktyabrda İvanişvili seçkilərdə qalib gələcək. O halda da 3+3 formatında əməkdaşlıq daha da inkişaf edəcək, genişlənəcək". **Deputatın sözlərinə görə, bundan sonra Gürcüstan üzərindən Qara dənizə, Qərbə çıxış imkanı əldə etmş Ermənistan da artıq destruktiv, neqativ rol oynamaq imkanları olmayacaq, o da pozitiv mövqe ortaya qoymaq məcburiyyətində qalacaq:** "O halda Ermənistanın başqa yolu qalmayacaq. Qeyd etdiyimiz kimi, artıq Gürcüstanla bağlı kartlar açılıb, İvanişvili özünün rusiyayönümlü siyasətçi olmasını və regional əməkdaşlığa üstünlük verdiyini ortaya qoyub. Çalışırlar ki, ölkədə Qərbin dəstəklədiyi QHT sektorunu da sıxışdırsınlar. Onların maliyyəsini kəsməklə sözsüz ki, vətəndaş cəmiyyəti sektorunun fəaliyyətini xeyli dərəcədə çərçivəyə çalmış olacaqlar. Ona görə ki, Gürcüstanda təqribən 60 minədək insan Qərbdən maliyyələşdirilən QHT sektorunda çalışır, bu, böyük qüvvədir. Onların ailə üzvlərini də əlavə edəndə daha böyük qüvvə deməkdir".

**Q.Həsənquliyev bir daha vurğuladı ki, regionda bir sıra proseslər Rusiya-Ukrayna müharibəsindən asılıdır:** "Ermənistanın da gözü oradadır. Ermənistan məhz Qərbin təhriki ilə bu savaşda nə baş verəcəyini gözləyir. Rusiya məğlub olsa, bu, hakimiyyət dəyişikliyinə gətirəcək. Bu nəticə isə qərbyönümlü hakimiyyətin formalaşması demək olar. Ondan sonra isə Azərbaycana qarşı daha sərt, ağır şərtlər irəli sürəcəklər, o cümlədən separatçıların Qarabağa qaytarılması, onlara beynəlxalq təminat verilməsi və sairə bağlı. Ermənstanın da gözlədiyi budur. Amma hər halda, ümid edirəm ki, geosiyasi proseslər Azərbaycanın xeyrinə inkişaf edəcək və Azərbaycanın da irəli sürdüyü bu layihə bölgədə iqtisadiyyatın inkişafına, təhlükəsizliyə, sülhə xidmət etmiş olacaq".

**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov isə qəzetimizə bildirdi ki, 3+3 formatı regional əməkdaşlıq üçün geniş məqsədlər nəzərdə tutsa da, əsasən Azərbaycanla Ermənistan arasında sülhün bərqərar olması, kommunikasiyaların açılması üçün əməkdaşlığı özündə ehtiva edirdi:** "Gürcüstan əslində bu formata əvvəl də qoşula bilərdi. Fikrimcə, Gürcüstanın Rusiya ilə münasibətlərinin gərgin olması sadəcə bəhanə idi. İkinci bir məsələ budur ki, Gürcüstan Avropaya və bütövlükdə Qərbə inteqrasiya istiqamətində uzun bir yol keçib və bu proses az qala 20 ildir davam edir. Gürcüstanın Avropa İttifaqı ilə assosiasiya sazişi qüvvədədir, vizasız gediş-gəliş və sair. İnteqrasiya məsələləri də öz yerindədir. Sadəcə, məlum qanunun qəbulu Qərbin razılığı olmadan baş verib və bu da gözlənildiyi kimi, Qərbin, o cümlədən Avropa İttifaqı ölkələrinin xoşuna gəlməyib. Amma hələ Gürcüstanın siyasi kursu tam dəyişməyib".

**S.Məmmədov hesab edir ki, oktyabrdakı parlament seçkilərindən sonra ciddi dəyişikliklər ola bilər:** "Gürcüstandakı hakim partiya hakimiyyətini qoruya bilsə, Qərbdən daha da uzaqlaşacaq. Rusiya ilə yaxınlaşmanın da, fikrimcə, müəyyən həddi var. Gürcüstan ərazisində Rusiyanın faktiki vilayətləri olan qondarma iki dövlət yaradılıb. Yaxınlaşma baş verərsə, nə dəyişəcək? Rusiya ən azı 2008-ci il status-kvosuna qayıtmağa hazırdırmı? Məncə, yox. Ona görə də vəziyyət hələlik müəmmalıdır və qəti fikir söyləmək mümkün deyil". **İcraçı direktor qeyd etdi ki, Zəngəzur dəhlizinin açılmasında İran da maraqlı deyil:** "Gürcüstan açıq bildirməsə də, hesab edir ki, regionda Gürcüstandan kənar nəqliyyat dəhlizlərinin yaranması Gürcüstanın həm iqtisadi, həm də geostrateji maraqlarına uyğun deyil. Bu baxımdan yaxın vaxtlarda 3+3 formatı çərçivəsində ciddi məslələrin həlli istiqamətində müzakirələrin başlanacağı ilə bağlı o qədər optimist deyiləm. Bununla belə, Gürcüstanın formatda real iştirakını istisna etmirəm".

Gürcüstan normal mövqe tutmaqla əslində öz qarşısındakı baryerləri aradan qaldırmış olar. Seçkiyə isə cəmi iki ay qalıb. Hətta seçkiyə qədər də rəsmi Tiflis normal mövqe sərgiləməklə bölgədə əməkdaşlığı özündə ehtiva edən prosesləri sürətləndirə bilər...

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 154 (8527) 29 avqust 2024

# Yeni əmək haqqı sistemi - kimə sərf edir, kimə yox...

## Əli Məsimli: "Minimum əmək haqqını 33-35 faizlik həddən 60 faizə mərhələlərlə çatdırmaq mümkündür"

**Azərbaycanda minimum əməkhaqqının artırılması və saatlıq əmək haqqı rejiminə keçilməsi mövzusu yenidən gündəmdədir. Rəsmilərin açıqlamasında deyilir ki, bu sistemin tətbiqi işçi hüquqlarının gücləndirilməsi və sosial rifahın artırılması baxımından böyük əhəmiyyət kəsb edir. Hökumət bu addımları ataraq, işçilərin sosial müdafiəsini gücləndirmək və əmək bazarında daha ədalətli şərait yaratmaq məqsədi güdür.**

Bildirilir ki, minimum əmək haqqının artırılması milyonlarla insanın həyat şəraitini yaxşılaşdırmaqla yanaşı, işçilərin əməyinin daha layiqli şəkildə qiymətləndirilməsini təmin edəcək. Eyni zamanda saatlıq əmək haqqı rejiminə keçid, iş vaxtının daha səmərəli təşkili və işçilərin hüquqlarının qorunması istiqamətində mühüm addım kimi təqdim edilir. Bu dəyişikliklərin əmək bazarında daha çevik və müasir yanaşmaların tətbiqinə şərait yaradacağı və işçilərin öz hüquqlarını daha asan şəkildə qorumaq imkanını artıracağı bildirilir.

Qeyd edək ki, əmək haqqının saathesabı müəyyənləşdirilməsi Dünya Bankının təklifidir. Belə ki, Azərbaycan Dünya Bankının "Business Ready" hesabatı üzrə qiymətləndirməyə hazırlaşır. Bu yeni hesabatdan irəli gələn tövsiyələrə uyğun olaraq Azərbaycan hökuməti hesabatın "İşçi qüvvəsi" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair Yol Xəritəsi hazırlayıb. Yol Xəritəsində məşğulluq, əmək bazarı, əməyin qiymətləndirilməsi üzrə bir sıra tədbirlərin görülməsinə dair təkliflər öz əksini tapıb ki, onlardan biri də minimum əməkhaqqının hesablanması qaydasının dəyişdirilməsidir. Burada minimum əmək haqqının strukturuna yenidən baxılması və əməyin qiymətləndirilməsi meyarının günlük deyil, saatlıq hesablanması təklif olunur.

Azərbaycanın Əmək Məcəlləsinə əsasən ölkəmizdə günlük iş saatı 8, həftəlik isə 40 saatdan artıq ola bilməz. Minimum əmək haqqı bu tələb əsasında müəyyənləşib. Təqvim ayının iş günü sayı təxminən 22-23 günə bərabər olduğuna görə hazırda 345 manat təşkil edən minimum əmək haqqı üzrə bir günlük əməyin dəyəri 15-15,7 manat təşkil edir. Bir saata düşən minimum əmək haqqı isə 1,8-1,95 manata bərabərdir. Yəni hazırkı qanunvericiliklə saatlıq əmək haqqı hesabı olarsa, 1 saat üçün işçiyə bundan aşağı maaş təyin oluna bilməz. Çünki minimum aylıq əmək haqqı işçinin əməyinə görə ona ödənilən maaşın ən aşağı pilləsidir. Əməyin qiymətləndirilməsini təmin edən bu siyasətin əsas məzmunu işçilərin həyat şəraitini yüksəltməyə, yoxsulluq səviyyəsini azaltmağa və biznesin effektli olması yönündə stimul yaradılmasına xidmət edir. Azərbaycanda minimum əmək haqqı müvafiq qanunvericiliyə əsasən, ixtisassız əməyə və xidmətə görə aylıq əmək haqqının ən aşağı səviyyəsini müəyyən edən sosial normativdir.



Dünya Bankının təklifi əslində əməyin qiymətləndirilməsində səmərəliliyin təmin edilməsinə, konkret olaraq işlədiyi saatlar üzrə əməyin real qiymətləndirilməsinə xidmət edir. Aydın məsələdir ki, bank bu təklifi dünya təcrübəsinə əsaslanmaqla irəli sürüb. Məlumdur ki, bu praktikadan inkişaf etmiş ölkələrdə, xüsusilə də Avropada geniş istifadə olunur. Avropa ölkələrində minimum aylıq əmək haqqı anlayışı yoxdur, bu ölkələrdə orta və median əmək haqqı var. Minimum hədd 1 iş saatı üçün müəyyənləşdirilir. Eyni zamanda aylıq iş saatın miqdarına da minimum tələblər qoyulur. Bu tələblərə əməl olunması həmkarlar təşkilatları, işəgötürənlər və dövlətin nəzarətçi qurumları tərəfindən birgə həyata keçirilir. Hazırda Avropada bir saat əməyin dəyəri orta hesabla 20-35 avro təşkil edir. İşçi gün ərzində 8 saat, ayda 170 saat çalışdığı halda onun 3000-4500 avro civarında əmək haqqı yaranır. İşçinin günün müxtəlif saatlarında iş rejimi 8 saat, digər günlərdə 4,5, 6 saat da ola bilər. Bu, işəgötürən və işçi ilə razılaşdırılmış əmək və ya mülki müqavilədə öz əksini tapır. Amma iş saatlarının aylıq miqdarı tələbinə mütləq əməl olunmalıdır ki, işçinin maaşı onun layiqli yaşayışını təmin edəcək səviyyədən aşağı düşməsin.

ABŞ-da da əmək haqqı əsasən saathesabı müəyyənləşdirilir və onunla bağlı minimum hədlər mövcuddur.

Maraqlıdır ki, Azərbaycanda əmək haqqının saathesabı hesablanması - vaxtamuzd iş ayrı-ayrı sahələrdə çoxdan tətbiq olunur. Buna neft-qaz, energetika sektorunda - növbəli iş rejimi olan yerlərdə daha çox rast gəlinir. Bir sıra neft şirkətlərində növbəli rejimdə işçilər 12 saatlıq iş günü əsasında işləyirlər, onların əmək haqqı isə saatla hesablanır. Minimum aylıq saat 168 saat müəyyən olunub.

Hökumət rəsmiləri bildirir ki, bəzi ölkələrdə əmək haqqının hesablanmasında hibrid modellərdən (həm saatlıq, həm minimum əmək haqqı) istifadə edirlər. Buna görə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qabaqcıl beynəlxalq təcrübəni araşdırmaqla, təhlillərin nəticələri nəzərə alınmaqla təkliflər hazırlanacağını bəyan edir. Nazirlik əmin edir ki, saatlıq minimum əmək haqqının müəyyən edilməsi bir sıra məqsədlərə xidmət edir və əsas məqsəd işçilərin hüquqlarının qorunmasıdır.

Yeni əmək haqqı hesablanması mexanizminə keçid, rəsmilərin dediyi kimi, işçi hüquqlarının daha yaxşı qorunmasına gətirib çıxaracaq, yoxsa vəziyyət indikindən daha pis olacaq? Yeni mexanizm kimə sərf edəcək: işçiyə, yoxsa işəgötürənə?

**Ekspertlərin bu sahədə fərqli fikirləri var. İqtisadçı-ekspert Elbrus Cəfərli bildirir ki, Azərbaycanda minimum əmək haqqı şərti xarakter daşıyır:** "Əmək qanunvericiliyinə əsasən, rəsmi əmək müqaviləsi əsasında çalışanlar üçün iş saatları 09.00-18.00 vaxt qrafiki üzrə, yəni 8 saatlıq iş rejiminə əsasən tənzimlənir. Ona görə də rəsmi iş saatları əsasında çalışan və əmək haqqı minimum əmək haqqı üzrə hesablanan işçilər üçün bunun heç bir fərqi olmayacaq. Bu, özəl sektorda çalışan işçilər üçün fərq yarada bilər. Belə ki, bir çox özəl sahələrdə mülki müqavilə əsasında işləyən işçilər aylıq deyil, saat üzrə çalışırlar. Bu halda onların əməyinin dəyərində yox, sosial və əmək hüquqlarının qorunmasında təminatlar yaranmış olar".

**İqtisadçı-alim Əli Məsimlinin sözlərinə görə, saatlıq minimum əmək haqqı dünyanın bir sıra ölkələrində tətbiq olunur:** "Bu, əməkhaqlarının miqyasını daha aydın formada müqayisə etməyə imkan açır. Hüquqi baxımdan da mükəmməl yanaşmadır. Azərbaycanda tədricən saatlıq minimum əmək haqqına keçid vacibdir. Hazırda ölkəmizdə minimum əmək haqqı faktorundan istifadə edilir. Minimum əmək haqqı ölkədə 345 manat səviyyəsindədir. Orta aylıq əmək haqqı isə 1000 manatdan artıqdır. Ölkəmizin qoşulduğu beynəlxalq konvensiyalara əsasən minimum əmək haqqı orta aylıq əmək haqqının 60 faizinə yaxın olmalıdır".

**Ə.Məsimlinin fikrincə, indiki halda minimum əmək haqqını 33-35 faizlik həddindən birdən-birə 60 faizə çatdırmaq çox çətindir:** "Mərhələlərlə bunu etmək mümkündür. Paralel olaraq boşluqlar olmaması üçün saatlıq minimum əmək haqqı məsələsi ilə bağlı qaydalar hazırlanmalıdır. Çünki minimum əmək haqqının artırılması yuvarlaq götürsək 700 min adamın maaşına təsir göstərəcək"(Telegraf).

İqtisadçı Xalid Kərimli bildirir ki, həftədə 40 saat işləyən və daimi iş yeri olan işçilər üçün heç bir dəyişiklik olmayacaq. Əvvəl bu rəqəm 345 manat müəyyənləşdirilmişdirsə, indi isə həmin məbləğ ayda olan iş saatlarına uyğun olaraq saatlı əmək haqqına keçəcək. Bu sistem daha çevik bir mexanizmdir.

Aydın məsələdir ki, əmək haqqının hesablanması metodunun, mexanizminin dəyişməsi yalnız rəsmi əmək müqaviləsi ilə işləyənlərə təsir edə bilər. Rəsmi məlumata əsasən Azərbaycanda 2024-cü il iyulun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 760,8 min nəfər təşkil edib. Onlardan 887,5 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 873,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərir. Muzdla işləyənlərin 18,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,5 faizi təhsil, 12,8 faizi səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,0 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi peşə, elmi və texniki fəaliyyət, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,1 faizi maliyyə və sığorta fəaliyyəti, 14,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olur.

Ölkə üzrə əmək qabiliyyətli əhalinin sayı 5 milyon hesablanır. Və bunların üçdə birindən azca çoxu rəsmi əmək müqaviləsi ilə çalışır. İnkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq, yüksək inkişaf etmiş həmkarlar təşkilatları işçi hüquqlarının qorunmasında çox mühüm rol oynayırlar. Azərbaycanda bu sahədə vəziyyət, yumşaq desək, acınacaqlıdır. Həmkarlar ittifaqları faktiki olaraq formal xarakter daşıyır, işçi hüquqlarının müdafiəsində bu təşkilatlar demək olar ki, heç bir rol oynamır, hər il sahibkarlar konfederasiyaları, hökumətlə baş saziş imzalanması da işçilər üçün hər hansı əhəmiyyət daşımır. Bu şəraitdə hətta əmək haqqının saathesabı ilə hesablanması mexanizminə keçid zamanı işçilərin hüquqları pozulsa belə, onların müdafiəsi üçün real qüvvəsi olan həmkarlar mövcud deyil. Bütün bunlar o deməkdir ki, yeni mexanizmi hazırlayan strukturlar üzərində ictimai təzyiq yoxdur. Bu baxımdan, əsas ümid onadır ki, mexanizm Dünya Bankı ilə əməkdaşlıq şəraitində hazırlanır. Eyni zamanda mexanizmin nəticəliyini Dünya Bankı qiymətləndirəcək və bu qiymətləndirmənin nəticələri Azərbaycanın "Business Ready" hesabatındakı yerinə təsir göstərəcək. Bu isə o deməkdir ki, yeni mexanizm işçi hüquqlarının qorunması baxımından mövcud vəziyyətin pisləşməsinə gətirib çıxarmayacaq...

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 154 (8527) 29 avqust 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

# “Vətənpərvərlik təlim-tərbiyə, təhsil və elmlə cilalananda daha böyük fayda verər”

## Elçin Mirzəbəyli: “Gənclərin iş yerləri yaratmağa, öz işinin sahibi olmağa meyllənmələri də çox vacib amillərdən biridir”

**Sağlam gələcək həm də keyfiyyətli təhsildən asılıdır. Bugünlərdə ali təhsil müəssisələrinə qəbulun nəticələri açıqlandı. Maraqlıdır, görəsən, gənc nəsil daha çox hansı ixtisaslara maraq göstərib? Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı, elm və təhsil məsələləri üzrə tədqiqatçı Elmin Nuri mətbuata bildirib ki, builki rəqabət ötən illərlə müqayisədə daha fərqli və həyəcanlı olub:**

“Gərginlik yüksək səviyyədə idi. Çünki buraxılış imtahanında toplanan ballar daha yüksək oldu. Bu da rəqabəti artırdı. Hər il olduğu kimi, yüksək ballı ixtisaslarda, məsələn, hüquqşünaslıq, beynəlxalq münasibətlər, kompüter elmləri, tibb kimi peşələrdə də ciddi rəqabət var idi. Buna görə də biz keçid ballarının artmasını müşahidə etdik”.

Elmin Nuri əlavə edib ki, III ixtisas qrupunda tarix-coğrafiya (TC) altqrupu üzrə rəqabət bu il daha çox olub. Ötən illə müqayisədə bu il coğrafiya fənnini seçərək, ondan imtahan verib, bu altqrupa daxil olan ixtisasları (Beynəlxalq münasibətlər və Regionşünaslıq) seçənlərin sayı çoxluq təşkil edib. Həmçinin I qrup üzrə informatika yönümlü (Rİ altqrupuna daxil olan) ixtisaslar uğrunda mübarizə aparanların da sayı az olmayıb. Bu altqrupa daxil olan ixtisaslar isə kompüter və İT əsaslı olan peşələrdir.

Aydındır ki, gənclər həm də seçdikləri peşə ilə dövlətə töhfə verirlər. Peşəkar mütəxəssislər gördükləri işlərlə dövlətə xidmət edirlər.

“Yeni Müsavat”a açıqlamasında **millət vəkili Ceyhun Məmmədov** bildirdi ki, hər bir dövlətin formalaşmasında, güclənməsində gənclər siyasətinin xüsusi rolu var: “Bu gün bir çox dövlətin qarşısında olduğu kimi, bizim qarşımızda da duran ən mühüm məqsədlərdən biri gənclərin sağlam yetişdirilməsi, onlarda milli mənlik şüurunun gücləndirilməsidir. Azərbaycanda Ulu öndər tərəfindən qoyulan gənclik siyasəti bu gün cənab Prezident tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan gəncliyi dövlətinin yanındadır, dövlətin siyasətini uğurla həyata keçirir və bu istiqamətdə davamlı olaraq müxtəlif addımlar atır. Potensiallı gənclərin üzə çıxarılmasında onların ixtisas seçimi də çox önəmlidir. Bu gün Azərbaycan gəncliyinin savadlı yetişməsi üçün dövlət tərəfindən davamlı olaraq həm ölkə daxilində, həm də ölkə xaricində müxtəlif layihələr, tədbirlər həyata keçirilir. Son illər çox sayda Azərbaycan gənci təhsil üçün xarici ölkələrə göndərilir. Bu gün ən önəmli məsələlərdən biri düzgün ixtisas seçimi, gənclərin müxtəlif sahələrdə iştiraklılığının təmin edilməsidir. Bu məsələdə gənclərin üzərinə böyük vəzifə düşür.

Əvvəlki illərdə gənclər humanitar sahələrə maraq göstərirdilər. Hazırda isə yeni yanaşmanın şahidi oluruq. Texniki fənlərə maraq artıb. Hesab edirəm ki, bu sahədə hər birimizin - dövlət qurumlarının, valideynlərin üzərinə böyük vəzifə düşür. Gənclər tələbat olan sahələrə yönəlməlidirlər. Azərbaycanda gənclərin formalaşması üçün dövlət tərəfindən bütün işlər uğurla həyata keçirilir”.

**Millət vəkili hesab edir ki, gənclər təkcə ali təhsilə yox, eyni zamanda peşə təhsilinə də yönəlməlidirlər:** “Bəzi hallarda valideynlər övladlarını özlərinin arzu etdikləri ixtisaslara yönəltməyə çalışırlar. Odur ki, gənclər ixtisas seçimində diqqətli olmalıdırlar. Valideynlər də övladlarına düzgün istiqamət verməlidirlər. İş yerləri, imkanlar kifayət qədərdir. Gənclər bu imkanlardan doğru yararlanmalıdır”.

**Əməkdar jurnalist, Ədalət, Hüquq, Demokratiya Partiyasının sədr müavini Elçin Mirzəbəyli deyib ki, vətənpərvərlik təlim-tərbiyə, təhsil, ətraf mühit, cəmiyyət, qan yaddaşı ilə yanaşı, həm də xarakter məsələsidir, toplumsal yox, fərdi keyfiyyətdir:** “Bu amili təsdiqləyən çoxsaylı nümunələr var. Yeni yaxşı təlim-tərbiyə görməyən, təhsil almayan insanların arasında da əksər hallarda vətənpərvər, bir ovuc Vətən torpağı üçün canını fəda etməyə hazır olan, cəsarətli, qətiyyətli insanlara rast gəlmək olur. Şübhəsiz ki, vətənpərvərlik təlim-tərbiyə, təhsil və elmlə cilalananda daha böyük fayda verə bilər. Düşünürəm ki, əgər vətənpərvərlik amilindən çıxış etsək, gənclər daha çox ölkəmizin iqtisadi inkişafına, müdafiə qabiliyyətinin güclənməsinə, elmi-texnoloji tərəqqiyə, tibbə, ekologiyaya, qeyri-enerji sektorunun inkişafına töhfə verə biləcək sahələrə üz tutsalar daha yaxşı olar. Gənclərin iş yerləri yaratmağa, öz işinin sahibi olmağa meyllənmələri də çox vacib amillərdən biridir. Şübhəsiz ki, ölkəmizə vətənpərvər hüquqşünaslar, mədəniyyət adamları, tarixçilər də lazımdır. Amma əsas hədəf daha öncə sadaladıqlarım olmalıdır. Çünki məsələn, iqtisadiyyat güclü olanda, milli sahibkarlıq inkişaf edəndə, bu istər-istəməz digər sahələrə, mədəniyyətin, ədəbiyyatın inkişafına da ciddi təsir göstərir. İqtisadi intibahın davamı mədəni intibahdır. Ümumilikdə isə bu məsələdə xüsusi "vətənpərvərlik" reseptinin olmadığını düşünürəm".






# İki vəkilə cinayət içi açıldı - “Nüfuz alveri”...

**Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Vəkillər Kollegiyası birgə məlumat yayıb. Baş Prokurorluqdan APA-ya daxil olan məlumatda bildirilib ki, Tovuz rayon Vəkil Bürosunun müdiri Abdullayev Rəşad Tapdıq oğlu və həmin qurumun vəkili Əliyev Süleyman Hüseynqulu oğlunun qanunsuz əməlləri barədə daxil olmuş məlumat əsasında keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb.**

Əməliyyat-istintaq tədbirləri ilə Rəşad Abdullayevin 2023-2024-cü illər ərzində ayrı-ayrı hallarda birbaşa və Süleyman Əliyevlə qabaqcadan əlbir olmaqla məhkəmənin icraatında olan müxtəlif cinayət və mülki işlər üzrə öz həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək müvafiq vəzifəli şəxslərin qərarına qanunsuz təsir etmək imkanında olmasını vətəndaşlara bildirməklə müxtəlif məbləğlərdə müqavilədən kənar pul vəsaiti tələb etməsinə və almasına əsaslı şübhələr müəyyən edilib.

İş üzrə toplanmış sübutlar əsasında Rəşad Abdullayev və Süleyman Əliyev Cinayət Məcəlləsinin 312-1.1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə - nüfuz alveri) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Həmçinin Vəkillər Kollegiyası tərəfindən həmin şəxslər barəsində qanunvericilikdə nəzərdə tutulmuş qaydada araşdırma aparılır.

Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən halların, cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

# Narkotik satışına görə 3 nəfər həbs edildi



**DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin növbəti əməliyyatları zamanı 22 kiloqram narkotik vasitə dövriyyədən çıxarılıb. APA xəbər verir ki, bu barədə DİN-dən bildirilib.**

Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşlarının paytaxt ərazisində keçirdikləri növbəti tədbirlər nəticəsində narkotiklərin satışı və qanunsuz dövriyyəsini təşkil edən dəstə üzvləri - əvvəllər məhkum olunmuşlar Sənan Cəfərov, İlkin Əhmədov və Səfiyar Allahyarov saxlanılıblar. Onların üzərindən, ev və avtomobillərindən 22 kiloqram tərkibi psixotrop maddələrlə zənginləşdirilən marixuana və 297 ədəd metadon həbi aşkarlanıb.

Hər üç şəxs ifadələrində maddi qazanc əldə etmək məqsədi ilə narkotiklərin satışını həyata keçirdiklərini bildiriblər.

Faktlarla bağlı cinayət işləri başlanılıb, saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

S.Cəfərov, İ.Əhmədov və S.Allahyarovun daxil olduqları narkoşəbəkənin digər üzvlərinin də müəyyən edilərək saxlanılması istiqamətində tədbirlər davam etdirilir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Nigar HƏSƏNLİ

YENİ MÜSAVAT
N 154 (8527) 29 avqust 2024

# Xəzərin taleyi Volqa çayından asılıdır? - ekspertdən ilginc açıqlama

**Son illərdə Xəzər dənizinin səviyyəsinin azalması region ölkələrini ciddi narahat edir. Bunun səbəblərinin aradan qaldırılması təbii ki, tam mümkün deyil, amma müəyyən önləyici tədbirlər görülməsinin vacibliyi göz önündədir.**

İran da məsələ ilə bağlı narahatlığını bildirir. İranın Ətraf Mühitin Mühafizəsi Təşkilatının idarə rəisi Ümid Sədiqi İSNA-ya müsahibəsində bildirib ki, Xəzər dənizinin İran sahillərində suyun səviyyəsinin azalması narahatlıq doğurub.

Musavat.com xəbər verir ki, bu barədə məlumatı "Azad İran" Telegram kanalı yayıb.

Ü.Sədiqinin sözlərinə görə, son dövrlərdə Xəzərin sahilləri geri çəkilib və dəniz səviyyəsində 18 metr azalma var.

İdarə rəisi iddia edib ki, yaxın 20 ildə dənizin dörddə biri quruya bilər.

**Xəzərin səviyyəsinin dəyişməsini təbii hadisə adlandıran Sədiqi əlavə edib ki, İran çayları Xəzəri yalnız beş faiz su ilə təmin edir:** "İran çayları Xəzəri yalnız beş faiz su ilə təmin edir, Volqa çayı isə dənizin 85%-ni təşkil edir. Nəticədə bizim Rusiya ilə daha çox qarşılıqlı fəaliyyətdə olmağımız və bunu koordinasiya etməyimiz lazımdır. Qazaxıstan və Azərbaycanın da Xəzərə tökülən çayları var və biz bu ölkələrlə də işləməliyik. Xəzərin səviyyəsinin enməsi çox vacib və həssas bir məsələdir".

İran rəsmisinin açıqlamasında bir məqam diqqəti xüsusi cəlb edir və bu, mesaj kimi qiymətləndirilə bilər. Söhbət Volqa çayına işarədən gedir.

Sirr deyil ki, son illərdə Rusiya Xəzəri 85 faiz qidalandıran Volqa çayının təbii axarını müəyyən qədər dəyişib, su ehtiyatı anbarlarına yönəldib, habelə Volqa sahillərində yüz min hektarlarla yeni əkin sahələri salınıb. Bu səbəbdən Volqa çayının Xəzəri qidalandırması məhdudlaşdırılır.

Bu məsələ ilə bağlı Rusiya ilə danışıqlar aparıla bilərmi?

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sözügedən məsələ ilə bağlı ciddi addımlar atır. O, 10 gün öncə Azərbaycanda səfərdə olan Rusiya prezidenti ilə görüşdən sonra mətbuata açıqlamasında qeyd edib ki, əsas müzakirə mövzularından biri Xəzərin sürətli dayazlaşmasıdır. Ölkə başçısı danışıqlar aparılan otağın pəncərəsindən Vladimir Putinə hələ iki il əvvəl suyun altında olan, bu gün isə artıq bir metr yuxarıya çıxan qayaları göstərmişdi. Eyni zamanda İlham Əliyev mümkün ekoloji fəlakətin qarşısını almaq üçün birgə səylərlə vəziyyəti təhlil etmək və həm ikitərəfli, həm də beştərəfli formatda həll yollarını müəyyənləşdirmək barədə razılığa gəlindiyini açıqlamışdı.

Mövzunun ən ali səviyyədə gündəmə gətirilməsindən sonra Rusiya prezidenti Vladimir Putin Xəzər dənizinin dayazlaşmasının qarşısını almaq üçün elmi təhlillərin aparılmasına dair göstəriş verib. Prezidentin Həştərxan vilayətinin qubernatoru ilə söhbətində əsas diqqət cəlb etdiyi məqamlardan biri məhz Xəzərin dayazlaşması mövzusu olub. Rusiya prezidenti hökumətə məsələnin elmi tərəfdən araşdırılması üçün tapşırıq verəcəyini qeyd edib. Paralel olaraq Həştərxan qubernatoruna Xəzərlə bağlı qısa müddət ərzində hesabat hazırlayıb təqdim etməyi tapşırıb.

Alimlər Xəzər dənizinin dayazlaşmasını siklonların istiqamətinin dəyişməsi ilə əlaqədar Volqa hövzəsində orta illik yağıntının azalması ilə əlaqələndirirlər. **Rusiya Elmlər Akademiyasının Cənub Elmi Mərkəzinin aparıcı elmi işçisi, biologiya elmləri namizədi Vladimir Uşivtsev mövzu ilə əlaqədar TASS agentliyinə açıqlama verib:** "Bu ilk növbədə iqlimin dəyişməsi ilə əlaqədardır. Xəzər dənizinin dayazlaşması bəzi proseslərin nəticəsidir. Təxminən 20 il əvvəl Atlantik okeanından Rusiya ərazisinə siklonlar daxil olurdu, mərkəzi hissədən keçərək Volqa hövzəsinə yığılan su Xəzər dənizinə tökülürdü. Xəzər dənizinin öz buxarlanma balansı var idi. Hazırda bu siklonlar nisbətən şimaldan keçir və yağıntılar Moskva, Sankt-Peterburq ərazisinə düşür və Şimal Buzlu okeanına axır. Hazırda isə Volqada su qıtlığı var, çox dayazlaşıb. Buna görə Xəzər dənizi də dayazlaşıb", - deyə Uşivtsev bildirib.

Alimin sözlərinə görə, başqa bir siklon dövrü olan Cənub siklonu da hazırkı iqlim reallıqlarında Volqadan yan keçərək yağıntıları Don və Dnepr hövzələrinə axıdır.

## Qorxmaz İbrahimli: "Su daşıyıcıları üzərində suvarma sistemlərinin qurulması dənizin qurumasına gətirib çıxarıb"

**"Biosfer" İctimai Birliyinin sədri Qorxmaz İbrahimli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Xəzərin dayazlaşması bir neçə amillə əlaqədardır:** "İran dövləti təbiətin mühafizəsinə diqqət yetirsəydi, göllərin, dənizlərin qorunmasının tərəfdarı olsaydı, Urmiyə gölünü düşünərdi. Bununla yanaşı, İranın Ətraf Mühitin Mühafizəsi Təşkilatının idarə rəisi Ümid Sədiqinin dediklərində həqiqət var. Xəzərin su daşıyıcıları suvarmaya cəlb olunduğu üçün dənizin suyu azalır. Bu, ciddi amildir. Eyni zamanda yay fəslində buxarlanma da suyun səviyyəsinə ciddi təsir edir. Urmiyə gölü hazırda ekoloji fəlakətə məruz qalır. Su daşıyıcıları üzərində suvarma sistemlərinin qurulması gölün qurumasına gətirib çıxarıb. Xəzərin əsas su daşıyıcıları Volqa, Ural, Terek, Kür çayları, o cümlədən cənub zonasından axan çaylardır. Rusiyada da Volqaboyuda, çay üzərində suvarma sistemlərinin qurulması, iqlim dəyişikliyi ilə əlaqədar quraqlığın artması ciddi amillərdir. Bütün bunlarla yanaşı, mən çox da ümidsiz deyiləm. Ötən əsrin 80-ci illərində Xəzər dənizinin səviyyəsi yüksəlirdi. Bakı şəhəri ətrafında bulvar demək olar ki, sıradan çıxmışdı. Dənizkənarı Milli Parkın infrastrukturu elə qurulub ki, dəniz yüksəlsə, ərazi su altında qalmasın. İndi isə Xəzərdə çəkilmə müşahidə olunur. Buna görə də park dənizdən çox aralı qalır. Bu da bir problemə çevrilib. Yeni Xəzər dənizində yüksəlmə və dayazlaşma dəfələrlə müşahidə olunub. Xəzər yeni geoloji erada yaranmış göldür. Mülayim subtropik qurşaqda yaşayırıq. Hazırda yay fəslidir. Bu coğrafiyada isə yay quraq keçir. Quraqlıq səbəbindən Xəzərə su daşıyan Volqa, Terek, Kür çayları üzərində suvarmaya daha çox ehtiyac olur. Suvarma mədəniyyəti istər Rusiyada, istərsə də Azərbaycanda düzgün deyil. Nəticə etibarilə Xəzərin suyunun azalmasının şahidi oluruq. Hesab edirəm ki, payız fəslində yağıntılar çox olacaq. Qış fəslində isə Rusiyada bol qar yağışı gözlənilir. Nəticədə Xəzərin səviyyəsində qismən yüksəlmənin şahidi olacağıq".



❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**



## Paytaxta girişlərdən biri tam bağlanır

**29 avqust saat 06:00-dan Bakının mərkəzinə Badamdar istiqamətindən daxil olan yol bağlı olacaq. Bu barədə Bakı ŞBPİ-nin Dövlət Yol Polis İdarəsindən məlumat verilib.**

Bildirilib ki, Yasamal rayonu, Mikayıl Müşfiq küçəsi ilə Mətbuat prospektinin kəsişməsindən üzü Mikayıl Əliyev (Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi, Yeni Yasamal və Kənar Dairəvi yol) istiqamətində nəqliyyat vasitələrinin hərəkəti tam məhdudlaşdırılacaq.

Belə ki, kənar dairəvi yol ilə hərəkətdə olan nəqliyyat vasitələri şəhərin mərkəzinə doğru yalnız Yeni Yasamal ərazisinə daxil olmaqla hərəkət edə bilərlər.

Qeyd edilib ki, Badamdar qəsəbəsinin daxilindən mərkəz istiqamətinə hərəkət sərbəst olacaq.



## Bakıda avqustun 30-da bir neçə ərazidə su kəsiləcək

**Avqustun 30-u gecə saat 00:00-dan başlayaraq gün ərzində Nəsimi, Xətai, Səbayel rayonlarını içməli su ilə təmin edən d500 mm magistral xəttində təmir-bərpa işləri aparılacaq.**

Bu barədə "APA-Economics"ə İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin mətbuat xidmətindən bildirilib.

Qeyd edilib ki, bununla əlaqədar Səbayel rayonunun Neftçilər prospekti ərazisində, Yusif Səfərov küçəsinin bəzi yaşayış massivlərində, Səbayel rayonunun Rəşid Behbudov, Bülbül, Puşkin, Zərifə Əliyeva, Üzeyir Hacıbəyov, Xaqani, Nizami küçələrinin bir hissəsində, Nəsimi rayonunun Şamil Əzizbəyov, Dilarə Əliyeva, 28 May, Rəşid Behbudov, Elman Ovçuyev, Puşkin, Mehdi Mehdizadə küçələrinin, Droqal döngəsi, Azadlıq prospektinin bir hissəsində suyun verilməsində fasilə yaranacaq.

Suyun əvvəlki rejimlə verilməsi 31 avqust gecə saat 00:00-dan sonra bərpa olunacaq.

YENİ MÜSAVAT
N 154 (8527) 29 avqust 2024

# "Batka"nın müstəqilliyi itirmək təşvişi - Belarusu nə gözləyir?

## Politoloq: "Qərb koalisiyasının Ukraynadan sonrakı hədəfi Belarusdur"

**Son vaxtlar Belarus prezidenti Aleksandr Lukaşenko ölkəsinin taleyi ilə bağlı həyəcanlı açıqlamalar verir, çağırışlar verir. O, avqustun 27-də növbəti dəfə belə bəyanat verib. Qeyd edib ki, Belarus ətrafında vəziyyət heç vaxt belə mürəkkəb olmayıb: "İndi əsas məsələ belə bir şəraitdə ölkənin müstəqilliyini qorumaqdan ibarətdir".**

APA-nın BELTA-ya istinadən xəbərinə görə, bunu adıçəkilən ölkənin prezidenti Aleksandr Lukaşenko deyib. O bildirib ki, ölkənin hər bir vətəndaşı bu barədə fikirləşməlidir: "Mən sizin hamınızdan daha məlumatlıyam. Buna görə də hər bir istiqamət üzrə doğru yolu göstərə bilərəm. Hamımız eyni qayığın sərnişinləriyik və gedəcəyimiz başqa yer yoxdur. Ətrafda daha öncə qarşılaşmadığımız çox mürəkkəb vəziyyət hökm sürür. Bu şəraitdə ölkəni ayaqda saxlamaq lazımdır. Hər kəs müstəqilliyimizi qorumaq haqqında düşünməlidir". "Batka"nın narahatlığının arxasında dayanan səbəblər nədir? Belarusu kim işğal etmək istəyir? Yoxsa Lukaşenko növbəti seçkilər ərəfəsində onun iqtidarının yıxılacağından narahatdır?



**Siyasi təhlilçi Sona Əliyeva Belarusun Rusiya-Ukrayna savaşına sürüklənmək cəhdlərinin olduğuna işarə etdi**: "Qərb koalisiyasının Ukraynadan sonrakı hədəfi Belarusdur. Bunu adıçəkilən ölkənin rəhbəri Aleksandr Lukaşenko da yaxşı başa düşür. Qərb hər vəchlə Belarusu Ukrayna-Rusiya savaşına sürükləməyə çalışır. Üstəlik, Minsklə Moskva arasındakı münasibətlərdə son həftələrdə sərinləşmə hiss olunur. Səbəb isə "Batka"nın Putinin əmrlərindən müəyyən mənada sapması, Qərb və Kreml qarşısında uğursuz manevrlər etməsidir. Eyni zamanda Belarus xalqı da Lukaşenko diktaturasından təngə gəlib və əhali siyasi dəyişiklik istəyir. Bütün bunları təhlil edən Aleksandr Lukaşenko bu qənaətə gəlib ki, özünün və dövlətinin ayaqda qalması üçün ciddi təhlükələr mövcuddur. Hətta kiçik bir qığılcım Belarusu vətəndaş müharibəsi məngənəsinə qədər sürükləyə bilər. İndi "Batka" Rusiya ilə soyumaqda olan münasibətləri istiləşdirməyə çalışır. Bu soyuqluq Ukraynanın Kurska daxil olduğu ilk günlərdə baş vermişdi. Belarus ruslara öz sərhədindən Ukrayna ərazisinə daxil olmağa imkan tanımamışdı. Yəni Lukaşenko həmin hadisələr zamanı bir növ Ukraynanın əlinə oynamışdı. Ukraynalıların ona qarşı olan soyuq münasibətini düzəltmək istəyirdi. Amma hər şeyin əksi baş vermişdi. Kiyevin Minskə münasibəti dəyişmədi. Üstəlik, Belarus-Rusiya əlaqələri də ciddi şəkildə silkələndi. Görünən odur ki, payız-qış kampaniyasında Aleksandrı və ölkəsini ciddi sınaq gözləyir. Qərb rusları Avropadan tamamilə silib-süpürmək niyyətindədir. Deməli, yeni genişmiqyaslı hədəfin hazırkı ana xəttini Belarus təşkil edir. Bu baxımdan, Avropanın sonuncu diktatoru sayılan Lukaşenkonun hakimiyyəti və ölkəsi ilə bağlı narahatlığı başadüşüləndir".

**AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli "Batka"nın narahatlığını bu cür ifadə etdi**: "Fikrimcə, Lukaşenko haqlıdır. İkinci Dünya müharibəsindən sonra Belarus ən çətin vəziyyətə düşüb. İki daha böyük qardaşı bir-birilərinin qırtlağından yapışıb, bir-biriləri ilə ölümcül savaşa girib. Belarus hələlik bu davaya girməsə də, davanın içindədir, qardaşlardan birinin yanındadır. Rusiya-Ukrayna müharibəsi qızışdıqca bu alov Belarusa da sıçraya bilər. Lukaşenkonun da ən qorxacağı məhz budur. Üstəlik, gələn növbəti prezident seçkisində də ölkənin qarışmaq təhlükəsi həmişə var. Baxmayaraq ki, siyasi opponentlər sıradan çıxarılıb, ölkə nəzarət altındadır, lakin yenə də narazı kütlədən bu və digər şəkildə istifadə etmək olar. Narazı kütlə, etirazçı qüvvə isə sabit, nəzarət altında olan ölkədə belə var. Lukaşenkonun son narahat dolu açıqlamalarını yuxarıda qeyd edilənlərlə əlaqələndirirəm".

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov fərqli düşünür. O, Belarusa qarşı heç bir xarici təhlükə görmür**: "Belarus prezidenti Aleksandr Lukaşenkonun ölkəsinin müstəqilliyinin itirilmə təhlükəsi ilə bağlı əndişəsi əsassızdır. Heç kim Belarusu nə işğal, nə də suverenliyinə qəsd etmək istəyir. Lukaşenkonun narahatlığı hakimiyyəti ilə bağlıdır. Məlum olduğu kimi, Lukaşenko Putinin sadiq dostu və müttəfiqidir. Hər iki ölkə prezidentini birləşdirən ortaq maraqlar ön planda olduğundan Minsk və Moskva eyni cəbhədə dayanıb. Qərbin avtoritar rejim yaratmış Lukaşenkoya münasibəti getdikcə daha da sərtləşir. Belarus prezidenti yaxşı anlayır ki, Putinin Ukrayna savaşını uduzması və Rusiyanın məğlubiyyəti Kremlə sığınan bütün avtoritar ölkə liderləri kimi Lukaşenkonun da sonunu gətirəcək. Adətən avtoritar ölkə liderləri özlərinə olan təhlükəni ümummilli təhlükə kimi təqdim edərək, cəmiyyəti də bu təhlükə imitasiyası ilə səfərbərliyə cəlb etməyə çalışırlar. Həmişə də xəyali daxili və xarici düşmən obrazı yaradaraq repressiyaları və təzyiqləri cəmiyyət üzərində artırırlar. Belarusun ayaqda olması üçün aid olduğu Qərb dəyərlərinə üstünlük verilməlidir. Avroatlantik məkana inteqrasiya xətti götürülməlidir. Qərbin Belarus xalqı ilə heç bir problemi yoxdur. Həm Belarusa, həm də Avropaya problem yaradan Lukaşenko hakimiyyəti və onun ölkəsinin Rusiyanın vassalına çevrilməsidir. Hesab edirəm ki, Lukaşenko Qərblə münasibətlərini normallaşdırmalı, Putinin ambissiyalarına uymamalıdır. Azərbaycanın yaxın dostu və mütərəqqi olan Belarusun möhkəmlənməsi və beynəlxalq nüfuzunun artması bizim üçün də xeyirdir. 1994-cü ildən hakimiyyətdə olan Lukaşenko 30 ildir ki, ölkəni sərt idarəçilik altında saxlayır. Keçmiş sovetdən qalan idarəçilik sistemi qalır. Hətta ölkənin gerbi də demək olar ki, dəyişməz qalıb. Məncə, prezident Lukaşenko hakimiyyətinə qarşı təhlükənin getdikcə artdığını və ciddiliyini anlayaraq, çıxış yollarını axtarır. Bu çıxış yollarından biri də xalqı Belarusun müstəqilliyinin və suverenliyinin itirilməsi, işğala məruz qalması kimi klassik üsullardan istifadə etməklə qorxu yaratmaq istəyir. Mən Belarusa heç bir xarici təhlükə görmürəm. Təhlükə o zaman baş verəcək ki, hazırkı prezident dünyada gedən sürətli proseslərə, demokratikləşməyə, həmçinin Belarus xalqının istək və tələblərinə açıq şəkildə qarşı getsin və aqressiyasını artırmış olsun. Bu isə arzuolunan deyil".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**




## Trampın Ukraynadakı müharibə ilə bağlı mövqeyi dəyişib

**"Ukrayna qoşunları sərhəd xəttindən Rusiya ərazisinə daxil olduqdan sonra ABŞ-ın 45-ci prezidenti Donald Trampın iki ölkə arasındakı müharibə ilə bağlı mövqeyində dəyişiklik baş verib. Hazırda o, rəsmi Kiyevin bu addımının III dünya müharibəsinə səbəb olacağını düşünür".**

APA-nın məlumatına görə, bu barədə "The Independent" nəşri yazı dərc edib.

Məqalədə vurğulanır ki, bu cür ritorika Trampın prezidentliyi dövründə dəfələrlə Şimali Koreyanın ünvanına səsləndirdiyi təhdidləri unutduğunu deməyə əsas verir.

Məqalədə Bayden-Harris cütlüyünün idarəçilik dövrü də ciddi şəkildə tənqid edilir: "Dövlət Departamentində təmsil olunanların qlobal səviyyədə həyata keçirdiyi yanlış siyasət səbəbindən hazırda ABŞ-ın qarşısında ciddi çağırışlar dayanıb. Bunu biz həm Əfqanıstan, həm də Ukrayna nümunəsində görə bilərik. Ümumilikdə isə onların hakimiyyəti dövründə dünya 4 nəhəng münaqişə ilə üz-üzə qalmağa məcbur oldu".

YENİ MÜSAVAT
N 154 (8527) 29 avqust 2024



## Cəzaçəkmə müəssisəsinin qadın nəzarətçisi barəsində cinayət işi başlandı

**Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyindən həmin qurumun Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin nəzarətçisi Ceyhunə Qurbanovanın qanunsuz əməlləri barədə daxil olmuş material üzrə muxtar respublika prokurorluğunda araşdırma aparılıb.**

Naxçıvan Muxtar Respublikası Prokurorluğundan APA-ya verilən məlumata görə, araşdırma zamanı Ceyhunə Qurbanovanın qulluq mövqeyindən istifadə edərək qeyd olunan müəssisədə cəza çəkən qadın məhkumlardan biri üçün cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərə qadağan olunmuş müxtəlif əşyaları yoxlamadan gizlədərək özünə məxsus çantada müəssisənin daxilinə keçirməsinə və həmin məhkuma verməsinə əsaslı şübhələr müəyyən edilib.

Fakta bağlı Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Cinayət Məcəlləsinin 317-1.2-ci (Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxslərə qadağan olunmuş əşyaların şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə verilməsi və ya ötürülməsi) maddəsi ilə cinayət işi başlanıb, istintaq aparılır.



## Kəlbəcərdə dağ keçilərinin vurulması ilə bağlı görüntülər araşdırılır

**Kəlbəcərdə dağ keçilərinin vurulması ilə bağlı görüntülər araşdırılır. Bu barədə APA-nın sorğusuna cavab olaraq Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəis müavini Bəhruz Məhəmmədov məlumat verib.**

O bildirib ki, Kəlbəcər rayonunda dağ keçilərinin vurulması ilə bağlı sosial şəbəkələrdə yayılan görüntülər Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Təhlükəsizlik Xidməti və Daxili İşlər Nazirliyinin Kəlbəcər rayon Polis şöbəsinin əməkdaşları tərəfindən yerində araşdırılır.

DİN-in mətbuat xidmətinin Gəncə regional qrupundan APA-ya bildirilib ki, qeyd olunan görüntülərlə bağlı Kəlbəcər Rayon Polis Şöbəsində müvafiq araşdırma başlanılıb: "İlkin baxış zamanı ərazidə hər hansı bir ov izi aşkarlanmayıb. Müvafiq ekspertiza təyin olunub, ekpertizanın rəyindən sonra heyvanların hansı səbəbdən tələf olması məlum olacaq".

## Tələbələrə şad xəbər - yeni kartlarla bu güzəştləri əldə edəcəklər




**Təhsilin İnkişafı Fondunun təşkilatçılığı ilə "VISA" beynəlxalq ödəmə texnologiyaları şirkəti tərəfindən universitetlərdə vahid tələbə kartının yaradılması layihəsinin təqdimatı keçirilib. Bu kartlarla tələbələr dərsdənkənar fəaliyyətlər zamanı xüsusi imtiyazlara sahib ola biləcəklər.**

**Təhsilin İnkişafı Fondunun əməkdaşı Nərgiz Qədirova** mövzu ilə əlaqədar Modern.az-a danışıb.

O bildirib ki, bir müddət öncə Təhsilin İnkişafı Fondu "KapitalBank" və "Visa" beynəlxalq ödəmə texnologiyaları şirkəti arasında yeni "TələbəPlus" kartlarının istifadəyə verilməsi üçün memorandum imzalanıb:

"Kart vasitəsilə tələbələr "VISA"nın təqdim etdiyi xüsusi keşbek, endirim, promokodlardan yararlana biləcəklər. Əlavə olaraq, layihə çərçivəsində yerli və xarici şirkətlərlə müqavilələrin imzalanması və tələbələr üçün xüsusi güzəştlərin əldə olunması istiqamətində addımlar atılır. Bu imkanlar restoran, kafe, kitab, geyim, dəftərxana ləvazimatları mağazası, tibb müəssisəsi və s. məkanlarda mövcud olacaq".

**Fond rəsmisinin sözlərinə əsasən, "TələbəPlus" kartı eyni anda bir neçə funksiyanı yerinə yetirəcək**: "Həm universitetə giriş-çıxışı təmin edəcək, həm debet bank kartı kimi fəaliyyət göstərəcək, həm də tələbələrin təqaüd kartı olacaq. Tələbələr bütün bank əməliyyatlarını bu kart vasitəsilə rahat şəkildə yerinə yetirə biləcəklər. Layihənin ilkin mərhələdə Elm və Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisələrində tətbiq olunması nəzərdə tutulur. Daha sonra isə digər dövlət və özəl universitetlər könüllü şəkildə layihəyə qoşula bilərlər. Kart ölkə üzrə bütün universitetlərin tələbələri üçün nəzərdə tutulub. Bura həm əyani, həm qiyabi, həm ödənişli, həm də ödənişsiz əsaslarla təhsil alan tələbələr daxildir".

**Nərgiz Qədirova qeyd edir ki, tələbələrin işini mümkün olduğu qədər asanlaşdırmaq məqsədilə BirBank mobil tətbiqində "TələbəPlus" bölməsi yaradılacaq ki, orada bütün endirimlər haqqında məlumat və proqrama qoşulan şirkətlərin siyahısı yer alacaq:** "Sözügedən tələbə kartının digər tələbə kartlarından üstünlüyü ondan ibarətdir ki, kart asanlıqla "Apple Pay" və "Google Pay" elektron cüzdanlarına əlavə edilə biləcək. "TələbəPlus" tələbə kartı itirildiyi zaman ilk olaraq, bankla əlaqə saxlanılmalı, kart dondurulmalıdır. Daha sonra tələbə ona yeni kartın verilməsi üçün şəxsiyyət vəsiqəsi ilə təhsil aldığı universitetin mühasibat şöbəsinə yaxınlaşmalıdır".

## Supermarketlər əhalini belə aldadır



**Bakıdakı supermarketlərdə bir çox hallarda məhsulların rəf qiyməti ilə kassa qiyməti üst-üstə düşmür. Məhsulun kassa qiyməti daha baha olur. Kassir isə səbəb kimi rəf qiymətinin köhnə olmasını bildirir. Bəs bu cür halların aradan qaldırılması üçün hansı işlər görülməlidir?**

**Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov** Modern.az-a bildirib ki, belə halların qarşısını almaq üçün dövlət orqanları heç bir tədbir görmür:

"İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti yaxşı işləmir, bildirir ki, gərək istehlakçı malı alandan sonra kassa çekini götürüb rəfdəki qiymətlə müqayisə etsin. "Əgər onu aldadıblarsa, bizə çeki və rəfdəki qiyməti göndərsin. Biz bununla bağlı tədbir görək".

Belə bir effektsiz rabitə əlbəttə ki, heç kəsə uyğun deyil. Bu sahədə böyük problem yaşanır. Hətta elə olur ki, vətəndaşlar heç almadıqları malı, kart ödənişində çekə yazırlar. Azad İstehlakçılar Birliyinə gələn şikayətləri birləşdirsək, görərik ki, 1 ildə Azərbaycan vətəndaşları almadıqları mallar üçün 500 milyon manat pul ödəyirlər. Məsələn, Nizami küçəsində yerləşən "Qrand" marketdən Eyyub Hüseynov qabıqlı qoz alır, qoz ləpəsi yazırlar. Almadığı mal üçün 8 manat əvəzinə 68 manat yazırlar. Vətəndaş pomidor alır, götürüb kivinin qiymətini yazırlar. Belə kassa çekləri məndə var. Bu cür üsullarla əhalini aldadırlar. Adını çəkdiyim dövlət qurumu Prezidentə tabe olandan sonra gözləyirik ki, bu problemlərin həlli yolunda müsbət addım atılacaq. Ümumiyyətlə, həmin qurumda çalışanların çox hissəsi istefa verməlidir. Çünki onlar istehlakçı hüquqlarını qorumaqdan başqa digər işlərlə məşğul olurlar. Dövlət orqanları biznes qurmağın ərköyün obrazını yaradıb. Azad İstehlakçılar Birliyi bu haldan çox narahatdır".

YENİ MÜSAVAT
N 154 (8527) 29 avqust 2024





# Məktəbli bazarlığı neçəyə başa gəlir? - qiymətlər...

## Valideyn keyfiyyətli, davamlı məhsul almaq istəyirsə, xeyli pul xərcləməli olur - reportaj



**Yeni tədris ilinin başlamasına iki həftə qalır. Artıq valideynlər məktəbli formaları, kitab, dəftər almağa başlayıb. Valideynlər bildirir ki, ötən illə müqayisədə məktəbli ləvazimatları bahalaşıb. Nəzərə alsaq ki, əvvəllər dərs ilinin başlamasına bir ay qalmış metrostansiyaların yaxınlığında məktəbli yarmarkaları fəaliyyət göstərirdi. Artıq ötən ildən yarmarkaların fəaliyyətinə qadağa qoyulduğuna görə insanlar mağazalardan, bazarlardan alış-veriş edir. Burada da qiymətlər fərqli şəkildə təqdim edilir. Bəs bir uşağın məktəbə göndərilməsi valideyn üçün neçəyə başa gəlir?**

"Yeni Müsavat"ın əməkdaşı olaraq mövcud vəziyyəti öyrənmək üçün ən çox alış-veriş edilən məkanlardan birinə yollandıq. Nizami rayonu, "Qara Qarayev" metrostansiyasının yaxınlığında yerləşən mağazaya daxil olduq, qiymətlərlə maraqlandıq. Mağazaya daxil olar-olmaz insan izdihamı ilə üzləşdik. Bizimlə söhbətdə satıcı bildirdi ki, burada digər məkanlara nisbətən qiymətlər ucuzdur, ona görə alıcı sayı da çoxdur. Burada müxtəlif qiymətdə, müxtəlif çeşiddə dərs vəsaitlərini görmək olur. Malların üzərində qiymətləri də qeyd edilib, odur ki, bütün malların qiymətlərini nəzərdən keçiririk. Satıcı deyir ki, mağazada qiymətlər əsasən keyfiyyətə görə dəyişir. Misal üçün, 12 vərəqli sadə dəftərlər 15-45 qəpik arasında dəyişir: "18 vərəq dəftərlərimiz bitib, amma üstündə "tik-tok" yazılan dəftərlər qalıb, onlar da bahadır- 1 manat. 48 vərəq 80 qəpik, 60 vərəq dəftər 1 manat, 96 vərəq 1 manat 25 qəpiyədir.

Çantaların qiyməti isə hər il olduğu kimi bu il də bahadır. Mağazanın çanta bölməsinə nəzarət edən satıcıdan öyrənirik ki, ortopedik çantaların ən ucuzu 40 manat, ən bahalısı 198 manatadır. Adi çantalar isə 35 manatdan başlayır, ən bahalı məktəbli çantası 144 manatadır. Satıcı onu da əlavə edir ki, keyfiyyətli olduğuna görə "Yes", "Qabol" çantaları daha çox alınır.

**Qiymətlər bu il çox artıbmı deyə satıcıdan soruşuram. Cavabında isə bunları bildirir:** "Qiymətlər malın gəlişindən asılıdır. Bizdə qiymətlər standartdır. O qədər də artım yoxdur. Həm də malın keyfiyyətinə görə də dəyişir. Mallarımız isə əsasən Rusiyadan, Ukraynadan gəlir. Elə bax bu çantaların hamısını Ukraynadan gətiriblər. Onlar hansı qiymətə satırsa, biz də cüzi olaraq qiymət qoyuruq". Söhbətimizin bu yerində bir alıcı da bizə qoşulur. "İndi elə Əhmədlidən gəlirəm, oradakı mağazalarda 48 vərəq dəftər buradan bahadır. Qələmlər də eləcə. Fərq çoxdur. Ümumiyyətlə, bu il qiymətlər bahadır, bir uşağım üçün dünən məktəb ləvazimatları aldım, 200 manatdan çox pulum çıxdı", - deyə alıcı bizimlə söhbətdə bildirir.

Keçirik qələmlər olan bölməyə. Burada ən ucuz qələm 10 qəpikdən başlayır, ən bahalısı 1 manat 40 qəpik- 2 manata dəyişir. "Ən ucuz qələmlərimiz də keyfiyyətlidir, narahat olmayın", - deyə satıcı müdaxilə edir. Mağazada karandaşların da qiyməti müxtəlifdir. Ən ucuz 12 ədəd karandaş 1 manatdan başlayır. 10 manata olan karandaşlar da var. Satıcı deyir ki, "Yalonq" firmasının karandaşı 2 manat 50 qəpiyədir, ucuz olsa da keyfiyyətlidir. "Harry poter" karandaşı 4 manat 40 qəpiyə, 72 çeşidli karandaş 30 manata, 48 çeşidli isə 22 manatadır. "Faber castel" karandaşları keyfiyyətlidir, amma bahadır, 10 ədədi 6 manata, 12 ədədi isə 9 manata. "Penal"ların ən ucuzu isə 2 manat 40 qəpikdən başlayır, 30 manata qədər olan penallar da var.

Mağazada diqqətimi çəkən daha bir məqam isə məktəblilərin maraq göstərdiyi məhsullar olur, hətta bu malların qarşısında növbələr yaranıb. "Mama, bax, "A çetı-re"nin dəftərləri var orada, mənə bundan al, onu istəyirəm", - deyə anasının əlindən tutub dartan uşaq diqqətimi çəkir. Satıcıdan maraqla soruşuram, ay xanım, bu "A 4" kimdir, nədir ki, uşaqlar burada növbədə durublar? "Bu, rusiyalı blogerlərdir, mağazamızda ən çox onların şəkli üzərində olan mallar satılır. Hələ "Anime kromi"nin də məhsulları çox satılır. "Harry Poter", "A4", "Spider man" bu personajların mallarını daha çox alırlar. Əvvəllər "Barby"ni də çox alırdılar, indi o qədər də tələbat yoxdur. O ki qaldı o məhsulların qiymətinə, tələbat olduğuna görə qiymətlər də ona uyğunlaşır. Ümumiyyətlə, ucuz olan mallar da var", - deyə satıcı cavab verir. Məktəbli üçün lazım olan digər ləvazimatların da qiymətlərini öyrənirik. Plastik su qabları 6-9 manat arasında dəyişir. İçi dəmirli su qabları isə 22 manatadır. Yemək qabları da müxtəlif qiymətə təklif edilir. Plastik kiçik ölçülü olanlar 3.60 qəpik, metal qablar isə 10-12 manatadır. Qovluqlar- sadə plastik qovluq 50 qəpiyə, parça və davamiyyətli olanlar 26 manatdan başlayır, 33-35 manat arasında dəyişir. Ən bahalı karton 2 manat 10 qəpiyə, 5 manat 50 qəpiyə satılan karton da var. Rəngli kağızların qiyməti 60 qəpikdən başlayır, 5 manata satılan rəngli karandaş da var. Pozanlar isə 35 qəpikdən başlayır, qələm formasında olan pozanlar 1.40 qəpiyədir, 3 manata satılan qələmlər də var. Albomların 12 vərəqli olanı 1 manatdan başlayır, 20 vərəqli 1 manat 20 qəpiyə,

60 vərəqli isə 4 manatadır. Xətkeşlər 40 qəpikdən başlayır. 12 santimetrlik taxta xətkeş 40 qəpiyə, 30 santimetrlik dəmir xətkeş isə 2 manatadır. 6 rəngdən ibarət plastilin 1.50, 40 ədədlik plastilinlər isə 14 manata satılır. Kleyin ən ucuzu 60 qəpikdən başlayır, 2 manat 55 qəpiyə kley almaq mümkündür. Dəftər üzləri 25 qəpikdən başlayır. 5 -11-ci siniflər üçün 30 qəpik, 1-4-cü sinif üçün dəftər üzlərinin qiyməti 40-45 qəpik arası dəyişir.

Göründüyü kimi, əgər valideyn keyfiyyətli, davamlı məhsul almaq istəyirsə, xeyli pul xərcləməli olur. Hələ sadaladıqlarım məktəbli üçün lazım olan ən vacib ləvazimatlar idi. Bunun üzərinə məktəbli geyimlərini də əlavə etsək, bir evdən iki, yaxud üç uşaq məktəbə gedərsə, bu zaman valideyn xeyli pul xərcləməli olur. Tədris ili başlayandan sonra isə dərsliklərdən əlavə, dərs vəsaitləri də məktəblərdən tələb olunur. Bu zaman da valideynlər müəyyən vəsait xərcləməli olurlar. Bir sözlə, dərs ili başladısa, əlavə xərclərdən boyun qaçırmaq mümkün deyil. Yeni dərs iliniz mübarək!

**❑ Afaq MİRAYİQ,**
**Fotolar müəllifindir**
**"Yeni Müsavat"**



## Siqaret çəkən qadınlara ciddi xəbərdarlıq

**"Tütün istifadəsinin başda ağciyər olmaqla, bütün orqanlara ciddi zərəri var. Tütün istifadəsi dünyada hər 6 saniyədə bir insanın ölümünə səbəb olur. Tütünçəkmə nəticəsində onkoloji xəstəliklər, tənəffüs, mədə-bağırsaq, sidik-cinsiyyət, qan törədici sistemlərinin xəstəlikləri yüksək ehtimalla baş verə bilər".**

Musavat.com xəbər verir ki, bu fikirləri Səhiyyə Nazirliyinin rəsmi İnstagram səhifəsində nazirliyin Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundova açıqlayıb.

Onun sözlərinə görə, tütünçəkmə ağciyərlərdə xərçəng xəstəliyinin yaranmasının əsas səbəbi hesab edilir: "Aktiv tütün çəkənlərdə ağız boşluğunun, dodağın, mədənin və onikibarmaq bağırsağın, sidik-cinsiyyət orqanlarının, qan törədici sistemin xərçənginin yaranması riskini artır. Eyni zamanda ürək-damar xəstəliklərinin (ateroskleroz, beyin və ürək-damar xəstəlikləri, qarın aortasının anevrizmasının inkişafı) ehtimalı yüksəlir. Elmi cəhətdən sübut olunub ki, tütün bütün halların 90%-də ağciyər xərçəngindən, 75%-də bronxit və emfizemadan və bütün halların təxminən 25%-də ürək xəstəliyindən ölümün səbəbidir. Tənəffüs yolları xəstəliklərindən isə ağciyərlərin xroniki obstruktiv xəstəliyi, bronxit, pnevmoniya, uşaqlarda və böyüklərdə ağciyər xəstəliklərinin yaranması ehtimalı artır".

**Direktor qeyd edib ki, siqaret çəkən qadınlarda fertillik zəifləyir:** "Tütün tüstüsü ilə orqanizmə daxil olan zərərli maddələr həm hamilə qadına, həm də bətnindəki dölə mənfi təsir göstərir. Tütün tüstüsünün toksiki maddələri hamiləlik zamanı baş verən müxtəlif fəsadların yaranması ehtimalını və dölün oksigen çatışmazlığına gətirib çıxararaq, onun bütün orqanlarında normal inkişafın pozulması riskini artırır. Siqaret çəkən kişilər çəkməyənlərdən təxminən 12 il, qadınlar isə təxminən 11 il az yaşayırlar".

İradə Axundova bildirib ki, tütünçəkmə nəticəsində əmələ gələn bir çox xəstəliklərin yaranma riski tütünçəkmədən imtina etdikdən sonra azalır: "Siqareti tərgitdikdən sonra orqanizmdə normallaşma aşağıdakı etaplarla başlayır: ilk 20 dəqiqə ərzində qan təzyiqi normallaşır, 8 saat sonra qanda oksigen səviyyəsi tənzimlənir, miokard infarktı riski azalır, 24 saat sonra karbonmonoksit orqanizmdən tamamən təmizlənir. 48 saat sonra qanda nikotin səviyyəsi azalır, dad və qoxu hissi yüksəlir, 2 həftə-3 ay arası qan dövranı tam bərpa olur. Ağciyərlərin həyat tutumu 30% artır, həmçinin fiziki aktivlik yaxşılaşır. 1 ildən sonra koronar arteriyalarla bağlı xəstəlik riski 50% azalır, 5 il sonra ağciyər xərçəngi riski 2 dəfə azalır. İnsult riski siqaret çəkməyənlərlə eyni olur".

YENİ MÜSAVAT

Son səhifə

N 154 (8527) 29 avqust 2024

Avqust

## Baş bu səbəbdən çox tərləyir



**Lazım olan vitamin və minerallara malik olmayan bədəndə disfunksiya baş verir və bunun nəticəsində bir çox fəsadlara rast gəlinir. D vitamini də məhz bu vitaminlərdən biridir. Bu vitamin bədəndəki kalsium və fosfat səviyyələrini tənzimləmək üçün lazım olan önəmli vitamin hesab olunur.**

Həmçinin dişlərin sağlamlığı, sümüklərin və əzələlərin qorunmasına kömək edən bu vitaminin bədəndə əksikliyi zamanı bir çox problemlər baş qaldırır. Hətta bu vitaminin ciddi çatışmazlığı nəticədə uşaqlarda deformasiyaya və yetkinlərdə osteomalasiya kimi tanınan ağrılı sümük vəziyyətinə səbəb ola bilər.

Həkim-terapevt İrina Andreva D vitamini çatışmazlığının simptomları haqqında danışıb. O bildirib ki, baş nahiyəsinin tərləməsi orqanizminizin daha çox D vitamininə ehtiyacı olmasına işarədir. Sinir-əzələ qıcıqlanması və tər vəzilərinin həddindən artıq tər ifraz etməsi səbəbindən tərləmə də D vitamini çatışmazlığının ümumi erkən simptomu kimi təsvir olunur.

D vitamini çatışmazlığının digər ümumi əlamətlərinə aşağıdakılar daxildir:

Zəif əzələlər;

Çəki artımı;

Yorğunluq;

Zəif sümüklər və oynaqlar.

Əlavə olaraq o qeyd edib ki, xüsusilə 50 yaşdan sonra insanlar ən az iki həyati vitamin çatışmazlığı ilə üzləşirlər. Məhz bu səbəbdən bədənin vitamin tələbatını öyrənməli və bu məsələyə daha həssas yanaşılmalıdır.

# İnyeksiya şəklində təcili ürək stimulyatoru yaradılıb



**İsveçin Lund Universitetinin alimləri müvəqqəti kardiostimulyator rolunu oynayan inyeksiya məhlulu hazırlayıblar. Dərmanın bir inyeksiyası təcili vəziyyətdə insanı ürək aritmiyasından xilas edə bilər. Tədqiqat Nature Communications (NatComms) elmi jurnalında dərc olunub.**

Aritmiya ürəyin elektrik siqnallarında pozulma nəticəsində yaranır və orqanın çox sürətli, yavaş və ya nizamsız döyünməsinə səbəb olur. Problemlə mübarizə aparmaq üçün implantasiya edilə bilən kardiostimulyatorlar və dərmanlar istifadə olunur. Ancaq bəzi hallarda bu üsullar əlçatan olmaya bilər. Komanda bir şpris vasitəsilə idarə olunan nanohissəciklərə əsaslanan formula hazırlayıb. Bədən toxuması ilə təmasda olduqda, ürəyin ətrafında uzun elektrik keçirici molekullar zəncirindən ibarət bir struktur yaranır. Bu elektrod canlı hüceyrələrlə birləşir və adi cib telefonu kimi xarici mənbədən gərginlik ötürməyə qadirdir. Cərəyan inyeksiya yerində dəriyə bərkidilmiş kabel vasitəsilə çatdırılacaq.

Alimlərin fikrincə, belə bir sistem beş günə qədər işləyə bilər, bu da xəstənin xəstəxanaya çatmasına və müalicə almasına imkan verəcək. Bu müddətdən sonra polimer elektrod insan orqanizmində zərər vermədən həll olunacaq.

## Tramp pencəyinin parçalarını paylayacağına söz verib



**ABŞ prezidentliyinə namizəd Donald Tramp hazırkı prezident Co Baydenə qarşı debat zamanı geyindiyi pencəyin parçalarını alıcılara paylayacağını vəd edərək yeni NFT kartları yaradıb. Bu barədə Lenta.ru məlumat yayıb. "Hər bir fiziki kartda prezidentlik debatında geyindiyim kostyumun orijinal parçası var", - o, "Truth Social" hesabında yazıb.**

O əlavə edib ki, bu aksiya 15 və daha çox kart alanlara şamil olunacaq. Bir NFT kartının qiyməti 99 dollardır (168.3 manat). Ödəniş bank kartı və ya kriptovalyuta vasitəsilə həyata keçirilə bilər.

## Bu içkilər infarkta səbəb olur



**Araşdırmalara görə, enerji içkiləri ürəyə deyil, demək olar ki, bütün daxili orqanlara mənfi təsir göstərir. İnfarkt qəfil baş verir və çox vaxt müalicə üçün kifayət qədər vaxt olmur. Enerji içkilərinin həddindən artıq istehlakı hətta sağlam insanlarda da qəfil ürək dayanmasına səbəb ola bilər.**

Enerji içkilərində yüksək konsentrasiyalarda kofein var. Orta dozada kofein təhlükəsiz hesab edilsə də, artıqlığı ciddi yan təsirlərə səbəb ola bilər. Tədqiqatçılar həmçinin qeyd ediblər ki, gənclərdə qəfil ürək dayanması çox vaxt enerji içkilərini spirtli içkilərlə birlikdə qəbul etdikdən sonra baş verir.

Bu cür birləşmələr sağlam gənclərdə kritik və bəzən geri dönməz ürək-damar xəstəliklərinə səbəb ola bilər. Alimlər bunun aritmiya, ritm və ürək dərəcəsinin pozulması ilə bağlı ola biləcəyini deyirlər. Ağır hallarda, aritmiya ürəyin aşağı kameralarına xaotik və sürətli elektrik impulsları ilə nəticələnə bilər. Ürək ritmi bir neçə dəqiqə ərzində normala dönməzsə, bu, ciddi sağlamlıq nəticələrinə və hətta ölümə səbəb ola bilər.

## Bunları bilirsinizmi?

- Hər bir insan orta hesabla 290 min dəfə gülür.
- Hər bir insan ömrü boyunca 25 il yatır.
- Marafon qaçışı yarışlarında zəncilərin daha çox uğur qazanmasının səbəbi ayaqlarında ağ dərililərdən fərqli olaraq 2 ədəd artıq vətərin olmasıdır.
- Hər bir insan ömrü boyunca təxminən 2 milyon dəfə bir-birinə söz verir.
- İşləyən insanlar təqribən 5 ilini oturmaqla keçirirlər.
- Hər bir insan yemək bişirmək üçün 2.5 ilini, yemək üçün isə 3,5 ilini sərf edir.
- Qadınlar 17 ilini yalnız artıq çəkidən xilas olmaq üçün xərcləyirlər.
- Qadınlar 8 ilini alış-verişə, 1,5 ilini isə qadın salonunda keçirir.
- İnsan 1 ilini ev təmizliyinə sərf edir.
- İnsan ömrünün 10 ilini işləməklə keçirir. (20-65 yaş arası həftədə 40 saat işləyənlər)
- İnsan ömrünün 90 faizini qapalı mühitdə keçirir.
- İnsan ömrü boyunca 9 il televiziya seyr edir. 2 il isə sadəcə reklamları izləyir.
- Hər bir insan ildə 2 min yuxu görür.
- Hər bir insan təxminən 4,5 il avtomobil idarə edir və bu insanlar ilin 3 ayını yollarada keçirir.
- Parisin küçələrini bəzəyən şabalıd ağacları Fransaya Türkiyədən gətirilmişdir.
- İnsan 1,5 ilini hamamda keçirir.
- "Bugatti Veyron" avtomobili ən yüksək (420 km) sürətlə gedərsə, 13 dəqiqədən sonra təkərləri əriyər. Ancaq bu demək olar ki, mümkün deyil. Çünki 8 dəqiqə sonra benzini bitir.
- Eskimoslarda ailəsindən məmnun olmayan uşaq istədiyi başqa bir ailəylə birlikdə yaşaya bilər.




## Son 14 ildə ilk dəfə dünyanın ən eybəcər avtomobili satılıb

**Avropada naməlum alıcı yeni "Fiat Multipla" kompaktvenini alıb. 2010-cu ildən qlobal avtomobil sənayesinin ən çirkin avtomobili adlandırılan modelin istehsalı dayandırılıb.**

Bu barədə Motor.ru Avropa bazarlarında avtomobil satışlarını öyrənən "Dataforce" analitik şirkətinə istinadən məlumat yayıb. Ekspertlərin fikrincə, altı yerlik "Multipla" iyulda qeydiyyatdan keçib. Bununla belə, analitiklər bunun orijinal model olub-olmadığını və ya yeni sahibin 2004-cü ildə debüt edən yenilənmiş versiyanı alıb-almadığını dəqiqləşdirməyiblər. Qeyd edək ki, "Fiat Multipla" dünyanın ən çirkin avtomobillərindən biri adlandırılıb. "Brava" modeli əsasında qurulan italyan kompaktveni 1998-2010-cu illərdə istehsal edilib. Avtomobil qısa kapotlu və böyük şüşə sahəsi olan qeyri-standart kuzov dizaynı ilə seçilirdi. Bundan əlavə, kompaktvendə qabaq şüşənin altında əlavə faralar və ön sırada üç oturacaq var idi. Modelin opsiya siyahısına elektrik pəncərələr, kondisioner və peyk naviqasiyası daxil idi. Avtomobil üçün 103 at gücünə malik 1,6 litrlik benzin mühərriki və 105 at gücünə malik dizel mühərriki mövcud idi.

2004-cü ildə italyan markası bütün xüsusiyyətlərini itirərək tamamilə simasız avtomobilə çevrilən yenilənmiş "Multipla"nı buraxıb.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500